www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 10 yanvar 2018-ci il Çərşənbə № 5 (6894) Qiyməti 60 qəpik

**Xəbər**

## Bu gündən havalar kəskin pisləşir - dövlət qurumları qara hazırdırmı...

yazısı səh.15-də

**Gündəm**

### Jurnalistlər alpinistlər itkin düşən əraziyə aparıldı



**Nazir müavini:** "İtkin düşən üç alpinist tapılana kimi axtarışlar davam etdiriləcək"

yazısı səh.3-də

### İcra başçısı Gədəbəyi qarış-qarış zəbt edib

yazısı səh.6-da

### Ekspert Vergilər Nazirliyindəki islahatları dəyərləndirdi

yazısı səh.4-də

### Rus analitikdən "ABŞ Azərbaycanı qarışdırmağa çalışacaq" xəbərdarlığı

yazısı səh.8-də

### Baxçalının Ərdoğana açıq dəstəyinin sirri

yazısı səh.9-da

### Bakıda azərbaycanlılara hotel və hostel qadağası-təfərrüat

yazısı səh.4-də

### Fəzail Ağamalı İsa Qəmbərin yazılarına reaksiya verdi

yazısı səh.7-də

### Prezident seçkisinə kim, necə hazırlaşır?

yazısı səh.9-da

### Bakının düşmənə Yeni il "təbriki" - "Sonuncu işğalçı da çıxmayınca..."

yazısı səh.11-də

### Bankların bağlanması iş sektorunu sarsıdır

yazısı səh.12-də

### "Sovetski" də növbəti söküntü-kompensasiya yenə narazılıq yaradıb

yazısı səh.14-də

## "SSRİ-ni bərpa etmək istəyən Putini zəiflətməliyik"

# RUSİYAYA QARŞI YENİ CƏBHƏ - AZƏRBAYCAN ÜÇÜN RİSK, YOXSA...

Amerikanın Kremlə qarşı sanksiyaları Bakıya seçimlə yanaşı fürsət yaradır; Vaşinqton bölgəyə xüsusi qrup göndərir; **amerikalı analitiklər:** "Azərbaycan sürprizlə üzləşə bilər"; "Qarabağ məsələsi çözülməyincə, Ermənistan blokadada qalacaq..."




yazısı səh.5-də

# Bakıda iki gəncin mübhəm intiharı

Özünü dənizə atan Məlik Cahangirov dekabrın 22-də təhsil aldığı universitetdən qovulubmuş; Rəşad Mustafazadə haqda isə elə iddialar var ki...

yazısı səh.10-da



### Fazil Məmmədovun müşavirləri işdən qovuldu

yazısı səh.6-da



Ayətullah Xameneyi

### İranın ali dini lideri Amerikanı hədələdi - sensasion ittihamlar

yazısı səh.3-də



### Leyla Şıxlinskayaya 8 milyonluq yeyinti ittihamı

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018



## Prezident Ro-Ro terminalının açılışında iştirak edib

**Prezident İlham Əliyev paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışında iştirak edib, kompleksdə görülən işlərlə tanış olub.**

Yeni liman ötən il istismara verilmiş Bakı-Tiflis-Qars dəmir yolu xətti üçün bilavasitə yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tiflis-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəql olunmasını təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq. Yeni limanın ərazisi də daxil olmaqla, ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limana daha geniş tranzit və daşıma imkanları təmin edəcək.

## Fərhad Babayev və Arif Əzizov "Şöhrət" ordeni aldı

**Prezident İlham Əliyev Fərhad Babayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan mədəniyyətinin inkişafı və təbliğində xidmətlərinə görə Fərhad Ağa Səlim oğlu Babayev "Şöhrət" ordeni ilə təltif edilsin.**

Dövlət başçısının digər sərəncamı ilə Azərbaycan təsviri sənətinin inkişafında xidmətlərinə görə Arif Möhübəli oğlu Əzizov "Şöhrət" ordeni ilə təltif edilib.

## Banklara borcu olan şəxs Rusiyaya qaça bilmədi

**Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları ölkədən çıxışına qadağa qoyulmuş şəxsi saxlayıb. Virtualaz.org DSX-nin mətbuat mərkəzinə istinadən bildirir ki, bu il yanvarın 5-də Azərbaycan vətəndaşı, 25.06.1980-cı il təvəllüdlü İsgəndərov İlqar Rəftar oğlu Qusar rayonunun Samur qəsəbəsində yerləşən sərhəd zastavasının xidməti ərazisindən dövlət sərhədini pozaraq Rusiyaya keçməyə cəhd göstərərkən sərhədçilər tərəfindən saxlanılıb.**

Aparılmış ilkin araşdırma nəticəsində saxlanılan şəxsin müxtəlif banklara borcu olduğuna görə məhkəmə qərarı ilə ölkədən çıxışının qadağan olunması və bu səbəbdən onun ölkə ərazisini qeyri-qanuni yolla tərk etməyə cəhd göstərməsi müəyyənləşdirilib.

## Türkiyədə həbs edilən 18 general azadlığa buraxıldı

**Türkiyədə Fətullahçı Terror Təşkilatının (FETÖ) uğursuz dövlət çevrilişinə cəhddə iştirakda ittiham olunaraq həbs edilən 18 general azadlığa buraxılıb. "Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, FETÖ-nün dövlət çevrilişi planı həyata keçəcəyi təqdirdə həmin generallar ölkəni idarə edəcək heyətə daxil olacaqlarmış.**

Onların adı dövlət çevrilişi planını hazırlayan və çevrilişdən sonra Türkiyəni idarə edəcək Ölkədə Sülh Şurasının üzvləri siyahısına daxil edilibmiş. Lakin məhkəmədə həmin generalların günahı sübuta yetirilməyib. Hakimlərin fikrincə, 18 generalın dövlət çevrilişinə cəhdə iştirakını təsdiqləyən kifayət qədər dəlil-sübut yoxdur. Ona görə də məhkəmə Türkiyə Silahlı Qüvvələrinin generalları Erdal Öztürk, Veli Yıldırım, Şener Yazıçıoğlu, Ömer Mesut Ak, Ali Akyürker, Murat Yaygın, Celalettin Çoban, Ercan İnceoğlu, Abdulla Barutcu, Ersin Yıldırım, İsmet Gökhan Gülmez, Adnan Arslan, Salih Sevil, Osman Nadir, Ersal Ölmez, Mustafa İlter, Abdullah Baysar, Mesut Savaşın azadlığa buraxılması haqqında qərar qəbul edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01**

# "Azəriqaz" abonentlərin aldadılması ittihamlarına cavab verdi

**Son günlər sosial şəbəkə və bir sıra mətbuat orqanlarında bəzi abonentlərin SOCAR-ın "Azəriqaz" İstehsalat Birliyi tərəfindən aldadılması ilə bağlı məlumatlar yayılıb.**




"APA-Economics"in məlumatına görə, bəzi abonentlər "Azəriqaz" əməkdaşlarını sayğacın göstəricilərini düzgün qeyd etməməkdə ittiham edirlər. Onların sözlərinə görə, "Azəriqaz" rəsmiləri ötən ilin dekabr ayının qaz sərfini bu ilin yanvarında qeydə alıb: "Nəticədə bizə təqdim edilmiş bildirişdə yanvar ayında istehlak olunmuş qazın həcmi dekabr ayında sərfiyyat kimi qeydə alınıb. Bununla da ötən il limiti keçən abonentlər üçün yanvarın ilk günlərində istehlak olunmuş qazın bir kubmetrinin dəyəri 20 qəpikdən hesablanıb".

Smart İTRON məişət qaz sayğaclarından istifadə edən bəzi istehlakçılar isə iddia edirlər ki, onlar bu ilin yanvar ayında da ödəniş etsələr də "mavi yanacaq"ın qiyməti "Azəriqaz" tərəfindən bəyan edildiyi kimi, limit çərçivəsində 10 qəpikdən deyil, 20 qəpikdən hesablanıb.

**"Azəriqaz"ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İbrahim Kərbəlayev** "APA-Economics"ə bildirib ki, ötən ilin dekabr ayının sonundan etibarən 2017-ci il üçün nəzərdə tutulmuş limit başa çatıb və cari il üçün limitin hesablamasına start verilib.

Onun sözlərinə görə, ötən il olduğu kimi, bu il də bildirişlərin verilməsi istirahət və bayram günlərinə təsadüf etdiyindən yanvar ayının ilk həftəsi bu proses artıq yekunlaşdırılıb: "Sayğacların göstəricisində yaranmış fərqin olub-olmamasını aydınlaşdırmaq üçün abunəçilər yerli qaz xidmətinin satış şöbəsinə müraciət edə bilərlər".

**"Azəriqaz" rəsmisi Smart İTRON məişət qaz sayğaclarından istifadə edən bəzi istehlakçılar üçün qazın bir kubmetrinin 20 qəpikdən hesablanması məsələsinə də aydınlıq gətirib:** "Smart İTRON məişət qaz sayğacından istifadə edən abunəçi kartına 10 manat yükləyirsə, bu, 100 kubmetr qaz deməkdir. Sayğacın göstəricisi qazın sərfiyyatını manatla deyil, kubmetr ilə göstərir. Bəzən abunəçilər sayğaca vəsaiti daxil edirlər və sayğac 100 kubmetr göstərdikdə, istehlakçılar bunu 10 manat kimi başa düşürlər. Bəzi abonentlər sayğacın kartına 10 manat yükləyir. Bundan sonra da deyirlər ki, sayğacda 10 manat yoxdur, onun göstəricisi 5 manatdır. Yəni 100 kubmetr deyil, bu göstərici 50 kubmetrdir. Abonentin müraciəti əsasında bazaya baxanda isə aydın olur ki, abonent sayğacın smart-kartına dekabr ayında ödəniş edib. Əgər limiti keçibsə, artıq bu bazada kartın uçotu 20 qəpik tarifi ilə oturub. Yəni dekabr ayında ödəniş edib, yanvar ayının ilk günlərində əgər sayğaca bu 10 manat daxil edibsə, orada 100 kubmetr deyil, 50 kubmetr göstərəcək. Yəni vəsait baxımından onu 5 manat kimi göstərəcək".

## Qarabağda 2 erməni əsgər minaya düşdü

**Dağlıq Qarabağda iki erməni əsgər minaya düşüb. Modern.az "Novosti Armeniya"ya istinadən xəbər verir ki, hadisə yanvarın 4-də baş verib.**

Ancaq hadisə barədə rəsmi məlumat bu gün yayılıb. Yaralanan hərbçilər Xankəndindəki hospitala yerləşdirilib. Hər iki əsgərin ayağı amputasiya olunub.

Ötən gün onlardan birini İrəvandakı Müdafiə Nazirliyinin Mərkəzi Klinik Xəstəxanasına aparıblar. Onlardan birinin vəziyyətinin ağır olduğu bildirilir.

## Lənkəranda doğuş zamanı əkiz körpələr ölüb

**Lənkəran rayonunda doğuş zamanı əkiz körpələr ölüb. ("Report")**

Hadisə Lənkəran Rayon Mərkəzi Xəstəxanasının Doğum şöbəsində baş verib.

Məlumata görə, ana xəstəxanaya doğuşdan bir az əvvəl gətirilib. Doğuş zamanı əkiz uşaqlar dünyasını dəyişib.




## Bakıda saxta pasportlu iranlılar tutuldu

**Saxta pasportlarla Londona getmək istəyən iranlılar saxlanılıb. Dövlət Sərhəd Xidmətindən "Qafqazinfo"ya verilən məlumata görə, yanvarın 4-də sərhədçilər tərəfindən Heydər Əliyev Beynəlxalq Aeroportunda saxtalaşdırılmış Böyük Britaniya vətəndaşlarına məxsus pasportlarla Bakı-London reysi ilə Böyük Britaniya getmək istəyən 1978-ci il təvəllüdlü Cimen Aysegül və övladı 2009-cu il təvəllüdlü Cimen Zeynebsu davranışları şübhə doğurduğundan saxlanılıblar.**

Aparılmış araşdırmalar nəticəsində həmin şəxslərin 01.01.2018-ci il tarixdə İstanbul-Bakı reysi ilə Azərbaycana gəlmiş İran İslam Respublikası vətəndaşları 1979-cu il təvəllüdlü Muhəmmədi Zeynəb Kiomərz qızı və övladı 2009-cu il təvəllüdlü Pərvəreş Pəniz Əli qızı olması müəyyənləşdirilib.

Qeyd olunan şəxslər saxta pasportları İstanbul şəhərində tanışları olan Məhəmməd adlı İran vətəndaşından 15 000 ABŞ dolları məbləğində pulun müqabilində əldə etdikləri məlum olub.

## Ziya Məmmədovun sabiq müşavirinin vəkili danışdı

### Ceyhun Yusifov: "Rövşən Əhmədovun barəsində məhkəmənin həbsli axtarış qərarı var"

**Ziya Məmmədovun sabiq müşaviri Çingiz Baxşıyevin ölkədən çıxışına stop qoyulması xəbərinə vəkili Ceyhun Yusifov münasibət bildirib. Vəkil müvəkkili barəsində cinayət işinin başlanması, ölkədən giriş-çıxışına qadağa qoyulması haqda məlumatların doğru olmadığını bildirib.**

"Məqsəd Rövşən Əhmədovun oğlu Şahmar Əhmədovun uydurmasını ortaya atmaqdır. Bu gün konkret olaraq Rövşən Əhmədovun barəsində məhkəmənin həbsli axtarış qərarı var. Üç dəfə barəsində cinayət törətdiyinə görə hökm çıxıb. Qızıl oğurlanandan sonra 2 gün ərzində 700 min manatlıq əmlak əldə ediblər. Bundan başqa, avtomobilin dövlət qeydiyyat nişanı Rövşən Əhmədovun oğlu Şahmar Əhmədovun satması ilə bağlı Daxili İşlər Nazirliyinə videomaterial göndərmişik. O, vəzifə səlahiyyətini aşıb, etibardan sui-istifadə edib. Bu gün də konkret olaraq şər-böhtan atırlar. Biz hüququn aliliyinə inanırıq və növbəti dəfə müraciət edərək hüquqlarımızın bərpa olunmasına nail olacağıq".

**Vəkil deyib ki, qarşı tərəfin məqsədi ictimaiyyətin diqqətini növbəti dəfə digər istiqamətə yönəltməyə hesablanıb:** "Özlərinin qanunsuz fəaliyyətlərini ört-basdır etmək üçün 3 yuxu dərmanı atıb xəstəxanaya uzanıblar".

C.Yusifov müvəkkilinin ölkə ərazisində olduğunu, heç yerə getmədiyini də bildirib.

Qeyd edək ki, R.Əhmədov keçmiş nəqliyyat naziri Ziya Məmmədovun sabiq müşaviri, Avtonəqliyyat Xidmətinin keçmiş rəisi Çingiz Baxşıyevin, onun qızları Fatimə İbrahimova ilə Sevil Baxşiyevanın qızıllarını mənimsəməkdə ittiham edilib. İttihama aktına əsasən, o, qohumu Ç.Baxşıyevə məxsus 800 min manat dəyərində qızıl-zinət əşyalarını ələ keçirib. 2016-cı il aprelin 18-də R.Əhmədova qarşı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb. Barəsində Nərimanov Rayon Məhkəməsinin qərarı ilə 4 aylıq həbs qətimkan tədbiri seçilib. 17 sentyabr 2016-cı ildə ona CM-in 179.3.2-ci (mənimsəmə, külli miqdarda) maddəsi ilə yeni məzmunda ittiham elan edilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə R.Əhmədovun barəsində bəraət hökmü çıxarılıb və o, məhkəmə zalından azadlığa buraxılıb. Daha sonra bu qərardan protest verib. Onu da bildirək ki, R.Əhmədov bir neçə gün əvvəl yaşadığı evdə dərman içib. Ailə üzvləri onu 1 saylı Kliniki Tibbi Mərkəzə (Semaşko) çatdırıb. Onun həyatını xilas etmək mümkün olub. R.Əhmədovun cibindən məktub çıxıb. O, məktubda intihara cəhd etməsinin səbəblərini qeyd edib. Bildirib ki, intihar cəhdinə səbəb Çingiz Baxşıyevdir. Həmçinin ailəsinin təhlükədə olduğunu qeyd edib.

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

# Jurnalistlər alpinistlər itkin düşən əraziyə aparıldı

## Nazir müavini: "İtkin düşən üç alpinist tapılana kimi axtarışlar davam etdiriləcək"

**Artıq 10 gündən çoxdur ki, Tufandağ istiqamətində hərəkət edən zaman itkin düşən alpinistlər Namin Bunyatov, Babur Hüseynov, Fəridə Cəbrayılzadənin axtarışları nəticə vermir. Hadisə ilə bağlı cinayət işi də açılıb. Dekabrın 27-dən isə Fövqəladə Hallar və Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Sərhəd Xidmətinin müvafiq qurumları tərəfindən helikopter cəlb olunmaqla axtarışa başlanılıb.**



Yanvarın 9-da FHN-in təşkilatçılığı ilə bir qrup yerli jurnalist Quba rayonunda dağlıq ərazidə itkin düşmüş alpinistlərin axtarışlarının getdiyi əraziyə aparılıb. Jurnalistlər aparılan axtarış prosesi ilə yaxından tanış olublar. Həmin jurnalistlərin arasında "Yeni Müsavat" qəzetinin əməkdaşı da olub.

Fövqəladə hallar nazirinin müavini, general-leytenant Faiq Tağızadə itkin düşmüş alpinistlərin axtarışı ilə bağlı yaradılan qərargahda keçirilən mətbuat konfransında deyib ki, itkin düşən üç alpinist tapılana kimi axtarışlar davam etdiriləcək. O bildirib ki, bununla bağlı fövqəladə hallar naziri Kəmaləddin Heydərovun tapşırığı var.

**F.Tağızadə qeyd edib ki, itkin düşən alpinistlər düzgün marşrut üzrə getməyiblər:** "Onlar ən asan - B 1 marşrutu üzrə hərəkət etməliymişlər. Sonradan marşrut dəyişib. Həmin marşrut üzrə ərazilər seçilib, birinci ərazi yoxlanılıb, orada alpinistlərə rast gəlinməyib".

**Nazir müavini həmçinin deyib ki, alpinistlərin üzərində GPS sistemi olmalı idi:** "Lakin təəssüf ki, onların üzərində bu cihaz olmayıb".

**F.Tağızadə vurğulayıb ki, alpinistlərin axtarışı ilə peşəkar heyət məşğul olur:** "Burada qeyri-peşəkarlar çalışa bilməzlər. Burada avstriyalı mütəxəssislər iştirak edirlər".

Artıq xeyli vaxt keçdiyi üçün alpinistlərin sağ qalmalarına da ümidlər tükənib. Təcrübəli alpinistlərin sözlərinə görə, dağçılar yalnız qar uçqunu altında qalarlarsa və hərəkət zamanı buz çatlarına düşərlərsə, onlarla bağlı heç bir izə rast gəlinməz. Hazırda da faktiki olaraq itkin düşən 3 alpinistlə bağlı heç bir izə rast gəlinmir. Lakin hələ onların başlarına yuxarıda qeyd etdiyimiz halların gəldiyini də söyləyə bilmərik. Çünki bu barədə də heç bir rəsmi və ya qeyri-rəsmi məlumat yoxdur.

Ümumiyyətlə, Azərbaycanda bu kimi böyük axtarış tədbirləri ilk dəfə aparılsa da dünyanın hündür zirvələri belə hallara çox şahidlik edib. Hətta bəzi zirvələr var ki, orada alpinistin ölümü adi haldır. Məsələn, 8848 metr hündürlüyü olan "Everest"ə qalxmaq istəyən hər 10 adamdan birinin həyatını itirməsi ilə bağlı faktlar var. Bu gün də "Everest"də tapılmayan və ya illər öncə tapılıb, kimliyi məlum olmayan alpinistlərə rast gəlinir. Məsələn, 1924-cü ildə "Everest" zirvəsinə qalxmağa çalışan Gerorge adlı alpinistin cəsədi yalnız 1999-cu ildə tapılıb. Bu dağda istirahət zamanı fırtınaya düşüb ölənlər də az deyil. 1979-cu ildə alman alpinist qadın Hannelore də "Everest"də dünyasını dəyişib. Məlumatlardan belə görünür ki, hündür zirvələrə qalxan zaman alpinistlər əsasən istirahət etdikləri zaman donaraq və ya qar uçqununa düşərək dünyalarını dəyişirlər. Onların cəsədləri isə tapılanda bəzən artıq tanınmaz halda olurlar. Məlumatlara görə, "Everest"də 200 alpinist meyiti var...

"National Geographic" nin məlumatına görə, 1990-cı ildə zirvəyə qalxmaq istəyənlərin 18 faizi buna nail ola biliblər. 2012-ci ildə isə bu rəqəm 56 faizə qədər qalxıb. Bir zamanlar keçilməz görünən "Everest"ə artıq bəzən eyni anda 200-dən çox alpinist dırmanmağa cəhd edir. Onu da qeyd edək ki, "Everest"ə qalxmaq təkcə fiziki güc deyil, pul da tələb edir. Belə ki, məlumatlara görə, təlimatçılara, bələdçilərə və dırmanma zamanı digər bu kimi məsələlərə 10-100 min dollar arasında xərc çəkilir.

Təbii ki, Azərbaycan zirvələrini "Everest"lə müqayisə etmək olmaz. Çünki Azərbaycanın ən hündür zirvəsi olan Bazardüzü 4466 metrdir. Bu isə "Everest"in yarısı qədər edir.

**"Yeni Müsavat"a danışan "Vertical group" dağ və sənaye alpinizm şirkətinin rəhbəri Emil Vəliyev bildirib ki, onlar tez-tez "Elbrus"da olurlar və orada da itkin düşənlərlə bağlı xəbərlər alırlar:** "Orada hətta öyrəndim ki, "Elbrus"da bir yapon itib və hələ də tapılmır. Ailəsi onu tapan şəxsə 1 milyon dollar ödəyəcəyini deyib. Yəni dünyanın hər yerində bu kimi hadisələr baş verir. Onlar əsasən çatlara düşürlər. Dağlar var ki, orada 200-300 metr dərinliyində çatlar var. Adam çata düşür, üstünə qar yağır, su axır, çat bağlanır. 50 metr çata düşən adam olar ki, heç 100 il tapılmaz. Ancaq bizim dağda tapılmama ehtimalı yoxdur. Azərbaycanda elə də böyük dağ yoxdur. İkincisi də dağ relyefimizdə dərin çatlara da rast gəlinmir. Alpinist buzlaqda, uçqunda qala bilər və hava açılanda tapılar. "Kazbek", "Elbrus"a baxanda alpinizm baxımından dağlarımız qorxulu sayılmır. Sadəcə olaraq, uyğun hava şəraiti və Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarının işləməsi üçün şərait lazımdır. Hazırda alpinistlərin itkin düşdükləri yerdə, dərədə axtarış işləri gedir və inanın ki, hər an orada 3 alpinisti axtaran ən azı 10 əməkdaşa zərər dəyə bilər. Çünki dərədir və qar uçqunu qaçılmazdır. Doğrudur, orada bütün bunlar nəzərə alınıb. Ancaq yenə də təhlükə hava şəraitindən asılıdır. Bizim dağlarda "Kazbek" kimi buzun altından çay axmır. "Kazbek"də buzun altında adam itib, illərdir ki, tapa bilmirlər. Çünki buzlaqlar böyükdür. Buzlağa düşdünsə, tapılma şansı çox azdır. İki dəfə "Tufandağ"dan hava şəraitinə görə geri qayıtmışam. Bizim məntiqlə "dağ qaçmır". Yəni dağ hər zaman ordadır, əsas həyatda qalmaqdır. Alpinistlər də var ki, onlar hər hava şəraitinə uyğunlaşmaq istəyir. Yəni ümumi götürəndə Tufandağda da çatlar var. Ancaq onlar üç alpinisti içinə alacaq ölçüdə deyil. Hansı ki, bu alpinistlərdən də biri Namindir ki, o da dünyanın ən çətin zirvələrində olub. İkisi belə getsə çatlara yalnız biri düşə bilər. Üçüncünün düşmə ehtimalı yoxdur. Biz şirkət olaraq "Kazbek" və "Elbrus"a peşəkar turlar təşkil edirik. Orada çatlar var ki, düşdünsə çıxa bilmirsən. 5-6 metr iplərlə işləyirik ki, çatın təhlükəsindən qoruna bilək. Azərbaycanda isə "Tufandağ"da 3 nəfər iplə işləyirsə, onların çata düşmə ehtimalı yoxdur".

❑ Əli RAİS,
❑ "Yeni Müsavat"



# İranın ali dini lideri iğtişaşlardan danışdı, Amerikanı hədələdi - sensasion ittihamlar

## Ayətullah Xameneyi: "Amerikanın başında olan o zahirdə normal adam olmayan bilsin ki, bu nümayişkaranə dəlilikləri cavabsız qalmayacaq"

**İranın ali dini lideri Ayətullah Əli Xameneyi son hadisələrlə bağlı çıxış edib. Musavat.com xəbər verir ki, yanvarın 9-da ölkənin əsas dini mərkəzi olan Qum şəhərinə gələn dini lider burada din xadimləri və xalq kütlələri qarşısında son olaylar haqqında geniş çıxış edib.**

İran dini lideri baş verənləri xarici təxribat adlandırıb. O deyib ki, İranın düşmənləri inqilabdan sonra əksinqilab fəaliyyətlərini davam etdirir. Sitat: "Mövzu 1 ilin, 2 ilin yaxud 5 ilin mövzusu deyil. Döyüş, millətin ziddinə olanlarla millətin döyüşüdür. Döyüş, İranın ziddinə olanlarla İranın döyüşüdür. Döyüş, İslamın ziddinə olanlarla İslamın döyüşüdür. Və bu, davam edəcək".

**Dini lider deyib ki, sosial tələblərlə, iqtisadi vəziyyətə etiraz edənlərlə təxribatçılar ayrılmalıdır:** "Xalqın həqiqi tələbləri ilə törədilən vəhşiliklər arasında fərq qoymalıyıq. Bayraq yandırma, Quranı və İslamı təhqir etmənin xalqın tələbləri ilə heç bir əlaqəsi yoxdur. Son günlər baş verənlər haqqında təhlillər aparılır və hamısında ortaq mövqe budur ki, haqlı tələblərlə küçəyə çıxanlar və vəhşiliklər törədənlər ayrı-ayrı dəstələrdir. Bir dəstə insan məhrum olduğu bir şey üçün çıxıb etirazını bildirir. Amma bundan istifadə edərək onlara qoşulub bayrağı yandırmaq, Quran və İslamı təhqir etmək, məscidə od vurmaq ayrı bir işdir. Bunları bir-biri ilə qarışdırmamalıyıq".

Ayətullah Xameneyi deyib ki, xalqa öz etiraz səsini bildirmək haqqı verilib. Eyni zamanda o, sosial problemlərlə etiraz edənlərə qarşı sərt davranılmadığını qeyd və əlavə edib ki, hökumətin borcu bu problemləri dinləyib sonra da həll etməkdir. Ancaq onun sözlərinə görə, son olaylar zamanı iğtişaş törədənlər idarə olunublar.

**İranın dini lideri daxildəki iğtişaş qruplarının, "Xalqın mücahidləri" qruplaşmasının, Qərb kəşfiyyatı və ərəblərin əlbir olduğunu bildirib:** "Baş verən hadisələrdə "üçlük" fəal idi. Kim idi onlar? Bunlar saxlanılanların etirafı və həmçinin kəşfiyyat xidmətinin əldə etdiyi məlumatlardır. Amerika və sionistlər neçə aydır ki, İran haqqında bir plan üzrə işləyirdilər. Kiçik şəhərlərdən başlayıb böyük şəhərlərə və oradan paytaxta sirayət edən bir hərəkat hazırlanırdı. Amma bunun üçün pul lazım idi ki, Amerika daha pul xərcləmək istəmir. Pulu körfəz ölkələri təmin etdilər. Üçüncü dəstə isə "Mücahidini-Xəlq" təşkilatıdır. Terror edən, adam öldürən münafiqlər neçə aydır təşkilatlanıblar. Özləri də bunu öz mətbuatlarında etiraf edirlər. Amerikalılarla əlaqədə olduqlarını, daxildə olan adamlarla camaatı küçələrə çıxartmaq üçün danışıqlar apardıqlarını özləri bildirirlər".

**Dini lider deyib ki, "Bahalığa yox!" şüarı quraşdırılmış, daha çox insanı cəlb etmək üçün düşünülmüş şüar olub:** "Bu elə bir şüardır ki, hamının xoşu gəlir. Camaat onlara qoşulduqdan sonra insanları öz məqsədləri üçün yönləndirdilər. Bir tərəfdən "canım İrana fəda olsun" deyirlər, digər tərəfdən bayrağı yandırırlar. Şüursuzlar anlamırdılar ki, bu iki şey bir-biri ilə düz gəlmir. Ümumiyyətlə, siz nə vaxt canınızı İrana qurban verməyə hazır olmusunuz? Müharibə zamanı canını düşmənə sipər edən və 300.000 şəhid olanlar inqilabçı və hizbullahçı adamlar olublar. Siz o zaman harada idiniz ki, indi canım İrana fəda olsun deyirsiz?

Amerika əsəb içindədir. Amma tək mənə yox, Sizə, İran xalqına, İran dövlətinə yenə məğlub olduğu üçün. İndi də Amerikanın dövlət rəsmiləri deyir ki, İran hökuməti xalqından qorxur. Xalqdan niyə qorxmalıyıq? İran dövləti xalqdan yaranıb və xalqa məxsusdur. Sonra deyirlər İran dövləti Amerikadan qorxur. Əgər Amerikadan qorxuruqsa, necə oldu sizi 80-ci illərdə İrandan bayıra və indi də regiondan bayıra atırıq? Amerika rəhbərləri bunu bilsinlər ki, hədəfləri boşa çıxdı. Mümkündür yenə səy etsinlər. Amma bilsinlər ki, yenə başları daşa dəyəcək. Bilsinlər ki, bu neçə gündə bəzi zərərlər vurublar ki, bu cavabsız qalmayacaq. Amerikanın başında olan o zahirdə normal adam olmayan bilsin ki, bu nümayişkaranə dəlilikləri cavabsız qalmayacaq. Və həmçinin xaricdə və çox təəssüf daxildə olan amerikasevərlər də bilsinlər ki, hökumət möhkəm dayanıb və Allahın lütfü ilə bütün çətinlikləri, problemləri və zəiflikləri aradan qaldıracaq".

❑ KƏNAN, musavat.com

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

**Paytaxt Bakının əksər hostel və bir neçə hotelində Azərbaycan vətəndaşlarına giriş qadağandır. Bu barədə dəfələrlə sosial şəbəkələrdə şikayət dolu məlumatlar yayılıb. Bu günlərdə isə Vüqar Əliyev adlı izləyicinin paylaşdığı status daha çox diqqətçəkən oldu. Onun sözlərinə görə, Bakı şəhərinin mərkəzində yerləşən iki hostel, Ə.Abdullayev 24 ünvanda yerləşən "Baygan Hostel" və İ.Qutqaşınlı 44 ünvanda yerləşən "Hostel 44" konkret olaraq azərbaycanlıları qəbul etmir.**

# Bakıda azərbaycanlılara hotel və hostel qadağası-təfərrüat

## "Azərbaycanlılar bir-iki dəfə problem yaratdığına görə onları qəbul etmirik"








Məsələni daha dərindən araşdırmaq üçün "Yeni Müsavat"ın əməkdaşı adıçəkilən hostellərlə əlaqə saxlayıb. Özünü müştəri kimi təqdim edən əməkdaşımıza "Baygan Hostel"in Günay adlı işçisinin ilk sualı bu olub:

"Müştəri yerli, yoxsa xarici vətəndaşdır? Biz azərbaycanlı qəbul etmirik. Səbəbini isə mən bilmirəm, bu müdiriyyət tərəfindən qoyulan qaydadır". İşçi ilə söhbətimizdən belə məlum oldu ki, adıçəkilən hostelin rəhbəri azərbaycanlıdır və hostel yarandığı gündən bu qaydaya riayət edir və azərbaycanlılar birmənalı şəkildə qəbul edilmir.

**"Hostel 44"-ün Ülvi adlı işçisi də əməkdaşımızla söhbətində bildirdi ki, hostel yerli vətəndaşları qəbul etmir. Səbəbini isə bu cür izah etdi:** "Azərbaycanlılar bir-iki dəfə problem yaratdığına görə onları qəbul etmirik".

Araşdırma zamanı məlum olur ki, paytaxtdakı nəinki hostellər, hətta tanınmış bəzi hotellər də yerli vətəndaşları qəbul etmək istəmir. Məsələn, İçərişəhərdə yerləşən **"Old City İnn" hoteli bu siyahıdandır. Hotelin Fərid** adlı işçisi qeyd etdi ki, yerli vətəndaşlar o halda qəbul edilir ki, həyat yoldaşları ilə birgə müraciət etsinlər:

"Xarici turistlərdən fərqli olaraq azərbaycanlılar fərdi halda bəzən qəbul edirik. Əks halda, mütləq həyat yoldaşı ilə birgə nikah sənədini təqdim etdikdən sonra hotelimizdən istifadəyə icazə verilir".

**Bu məqamda bir məsələni də qeyd edək ki, hotellərdə nikah sənədinin tələb edilməsi ilə bağlı mövzu dəfələrlə mətbuatın gündəminə çıxarılıb, hətta nazir səviyyəsində reaksiya verilib. Belə ki, nazir Əbülfəs Qarayev mətbuata verdiyi açıqlamalarının birində hotellərdə nikah kağızının tələb olunması ilə bağlı məsələyə münasibət bildirərkən qeyd etmişdi ki, qanunvericilikdə belə bir şey yoxdur:** "Qanunvericilikdə heç kəs tələb etmir ki, hər hansı nikah kağızı, hansısa izahat verilməlidir. Hesab edirəm ki, əgər insan öz pasportunu təqdim edərək öz otağında yaşayırsa, onun yanına gələn qonaqların haqqında soruşmağa dəyməz".

Qeyd edək ki, bütün bunlar bölgələrdən Bakıya və yaxud da əksinə, paytaxtdan bölgələrə üz tutan vətəndaşlarımız üçün böyük çətinliklər yaradır. Hotel və hostellərə buraxılmayan vətəndaşlarımız günlük kirayə verilən evlərin axtarışına çıxır.

Zaman-zaman xarici ölkələrdə bəzi harınlamış azərbaycanlı milyarderlərin özlərinə məxsus hotellərdə öz həmvətənlərinin girişinə qadağa qoyduğunun şahidi olmuşuq. Təbii ki, bunun bizə məlum olan və ya olmayan məqamları var. Lakin həmvətənlərimizin üzünə öz doğma vətənində hostel və ya hotellərin qapısının bağlanılması anlaşılmaz olaraq qalır. Maraqlıdır, xarici turistlərlə müqayisədə öz vətəndaşlarımıza tətbiq edilən ayrı-seçkiliyin əsl səbəbi nədir və bu nə dərəcədə doğrudur?

**Turizm eksperti Elxan Vəliyev mövzu ilə bağlı "Yeni Müsavat"a bildirib:** "Bu cür tədbirlər guya ilk növbədə təhlükəsizlik və hoteldən digər məqsədlərdən istifadə olunmaması üçün tətbiq edilir. Buna görə də bəzi iş adamları qarşılarına məqsəd qoyurlar ki, hostellər ancaq turistlər üçün istifadəyə verilsin. Lakin son zamanlar bu cür qaydalar təkcə hostellərdə deyil, hotellərdə də baş qalıb gedir. Xüsusən də hotel və ya hostellər dövlətə deyil, ayrı-ayrı iş adamlarına məxsus olduğundan istədikləri qaydaları tətbiq edirlər. Yerli və xarici turistlər arasında ayrı-seçkilik yaratmaq doğru deyil. Bütün bunların qarsısını almaq üçün kütləvi informasiya vasitələrində, mediada maarifləndirici işlər aparılmalıdır".

Mədəniyyət və Turizm Nazirliyindən isə "Yeni Müsavat"a bildirildi ki, adıçəkilən hostellər və hotellə bağlı araşdırma aparılır, tezliklə nəticə haqqında açıqlama veriləcək.

**❑ Xalidə Gəray, "Yeni Müsavat"**

# Ekspert Vergilər Nazirliyindəki islahatları dəyərləndirdi

## Rəşad Həsənov: "Vergi orqanlarının mənfi reputasiyasının aradan qaldırılması üçün ciddi işlər görülməlidir"

**Xəbər verdiyimiz kimi, Vergilər Nazirliyinin yeni rəhbərliyi tərəfindən vergi ödəyicilərinin əvvəlki dövrlərdə hesablanmış borclarının bağlanması ilə bağlı prosesə start verilib. Bununla bağlı məlumatı "Yeni Müsavat"a vergi borcları olan, vergi orqanlarından onların ləğv olunması ilə bağlı müraciət olunan sahibkarlar məlumat veriblər.**




Onu da qeyd edək ki, ölkə üzrə hesablanmış vergi borclarının məbləği son illərdə azalsa da, hələ də 1 milyard manatdan yuxarı olaraq qalır. Bu məbləğin böyük bir hissəsini əvvəlki illərdə əksər hallarda əsassız hesablanmış borclar təşkil edir. Vergi orqanlarının köhnə borcların bağlanması istiqamətində başlatdığı proses yüzlərlə sahibkar üçün böyük bir maliyyə yükündən azad olmaları demək olacaq.

**İqtisadçı-ekspert Rəşad Həsənovun** sözlərinə görə, borcların çox olması Azərbaycanda vergi yükünün yüksək olmasından irəli gəlir: "Azərbaycan resurs ölkəsi, təbii sərvətlə zəngin olmasına baxmayaraq, vergi yükünün həcminə görə bir sıra region ölkələrindən, eyni zamanda neft ölkələrindən kifayət qədər yüksəkdə dayanır. Dünya Bankının hesablamalarına görə, 2017-ci ildə vergi yükü Azərbaycanda kommersiya gəlirlərinin 39,8 faizi həcmində olub. Bu göstərici Gürcüstanda 16 faiz, Birləşmiş Ərəb Əmirlikləri, Qatar, Küveyt kimi ölkələrdə 14-17 faiz aralığındadır. Yaxud Böyük Britaniyada 31 faiz, Qazaxıstanda 27 faizdir. Vergi yükünün ağır olması biznesə mənfi təsir göstərir. Bu, binznesin yığımlarının həcmini azaldır ki, bu da istehsal prosesinə cəlb olunan investisiyaların həcmini azaldır, innovasiyaların tətbiqi imkanlarını məhdudlaşdırır, eyni zamanda qeyri-leqal fəaliyyətləri təşviq edir. Bu gün qeyri-leqal iqtisadiyyatın səviyyəsinin Azərbaycanda yüksək olmasının əsas səbəblərindən biri də vergi yükünün ağırlığıdır. Bu problem aradan qalxmalıdır. Digər tərəfdən, o borcların böyük hissəsi haqsız olaraq yazılan borclardır. Xatırlayırsınızsa, məhkəmə orqanlarından belə açıqlama oldu ki, vergi orqanlarından olan şikayətlərin böyük hissəsi üzrə vergi ödəyicilərinin xeyrinə qərarlar çıxarılıb. Orada göstərilən şikayət vergi orqanlarının haqsız hesablamalarının cüzi bir hissəsidir, çünki kiçik və orta sahibkarların çoxunun verginin qanunsuz fəaliyyətindən məhkəməyə şikayət etməyə ya cəsarəti çatmır, ya vaxt və maliyyə imkanı olmur, yaxud da öz hüquqlarını bilmir. Bu gün vergi borcunun silinməsi baş verirsə, bu, prosesin birinci mərhələsi olmalıdır. Bundan sonra vergi yükünün azaldılması istiqamətində proseslər başladılmalıdır. Vergi orqanlarının fəaliyyətində tam şəffaflıq təmin olunmalıdır".

**Onu da qeyd edək ki, Vergilər Nazirliyi qurum daxilində baş verən proseslərlə bağlı xüsusi açıqlama ilə çıxış edib. Vergilər Nazirliyindən "Yeni Müsavat"a təqdim olunan açıqlamada son zamanlar bir sıra kütləvi informasiya vasitələrində vergi orqanlarında həyata keçirilən kadr və struktur dəyişiklikləri barədə həqiqəti əks etdirməyən məlumatların yayılmaqda olduğu qeyd edilir. Bildirilir ki, cəmiyyətdə yanlış informasiyaların yayılmaması üçün Vergilər Nazirliyinin rəsmi məlumatlarına istinad olunmalıdır:** "Vergi inzibatçılığının təkmilləşdirilməsi, daha çevik idarəetmə mexanizmlərinin tətbiqi və yeni çağırışlara cavab verən vergi sisteminin formalaşdırılması məqsədilə Vergilər Nazirliyində struktur və kadr islahatlarına başlanılıb. Nazirliyin strukturunun yenidən təşkili, eyni zamanda, onun fəaliyyətini müəyyənləşdirən institusional dəyişikliklərin aparılmasına istiqamətlənən islahatlar ölkədə sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması, biznesin inkişafında süni maneələrin aradan qaldırılması, cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması, partnyorluq münasibətlərinin tərkib hissəsi olaraq vergi ödəyicilərinin öz öhdəliklərini yüksək səviyyədə yerinə yetirməsi məqsədi daşıyır".

Nazirlikdən bildirildiyinə görə, bununla əlaqədar olaraq, vergilər nazirinin müvafiq əmrləri ilə 64 nəfər vergi xidməti əməkdaşı tutduğu vəzifədən azad edilərək nazirliyin sərəncamına götürülüb ki, onların arasında nazir müşavirləri, struktur bölmə rəhbərləri və digər vəzifəli şəxslər var.

**İqtisadçı-ekspert hesab edir ki, bu dəyişikliklərin əhəmiyyətini o zaman qiymətləndiriləcək ki, arxasınca ciddi islahatlar başlansın:** "Hazırda vergi orqanlarının mənfi reputasiyası var, onun aradan qaldırılması üçün ciddi işlər görülməlidir. Vergi orqanları-sahibkar münasibətləri ötən dövr ərzində qeyri-qənaətbəxş qurulub. İkinci həlli vacib olan məsələ qeyri-leqal biznes fəaliyyətinin aradan qaldırılmasıdır. Bunun üçün əsas yol vergi yükünün azaldılmasıdır. Diferensiallaşdırılmış vergi dərəcələrinin tətbiqi, mövcud dərəcələrin azaldılması vacibdir. Elə vergi rejimi yaradılmalıdır ki, onu tətbiq etməklə işləmək rüşvət verib vergidən yayınmaqdan ucuz başa gəlsin. Yalnız bu halda qeyri-leqal biznesin qarşısını almaq mümkündür".

**❑ DÜNYA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

# “SSRİ-ni bərpa eləmək istəyən Putini zəiflətməliyik”

**2017-ci il bitər-bitməz, Rusiya baş nazirinin müavini Dmitri Roqozin Bakıya yarımməxfi səfər elədi. Rusiyanın hərbi sənaye kompleksini kurasiya edən və prezident Vladimir Putinin yaxın adamı kimi tanınan Roqozinin Bakı ziyarəti ilə bağlı paylaşdığı fotodan (prezident İlham Əliyevlə görüş əks olunub) belə qənaət hasil oldu ki, səfər, hər halda, uğurlu olub və Moskva hədəfinə çatıb.**




# Rusiyaya qarşı yeni cəbhə - Azərbaycan üçün risk, yoxsa...

## Amerikanın Kremlə qarşı sanksiyaları Bakıya seçimlə yanaşı fürsət yaradır; Vaşinqton bölgəyə xüsusi qrup göndərir - hədəf; **amerikalı analitiklər:** “Azərbaycan sürprizlə üzləşə bilər”; “Qarabağ məsələsi çözülməyincə, Ermənistan blokadada qalacaq...”

Yəni bununla Rusiya rəsmisi anons elədi ki, 2018-ci ildə də tərəflər arasında silah ticarəti davam edəcək - hansı ki, işğalçı tərəfdə növbəti dəfə və haqlı təlaş yaratdı. “Yeni Müsavat” bildirir ki, erməni KİV-ləri Roqozinin son səfərinə xüsusi diqqət ayıraraq, “müttəfiq Rusiya”nın hərəkətlərini növbəti dəfə pislədilər.

*****

Azərbaycan sözsüz ki, bu il də özünün müdafiə və hücum qabiliyyətini artırmaq üçün gərəkənləri edəcək. Hərbi büdcəmizin artırılması ən əvvəl bu hədəfə hesablanıb. Silahlanma məsələsində isə Rusiya 2018-ci ildə də yəqin ki, bizim əsas satıcılarımızdan biri olacaq. Hərçənd fevraldan ABŞ-ın tətbiq edəcəyi yeni və daha geniş sanksiyalar paketinin təsiri altına Rusiyanın hərbi-sənaye kompleksinə daxil olan müəssisələrin də düşməsi gözlənilir. Bu da, vurğulandığı kimi, Bakı üçün müəyyən suallar, hətta risklər yarada bilər. İşğalçı Ermənistanın isə daha ciddi maneələrlə üzləşəcəyi mümkündür. Çünki Rusiya onun şəriksiz silah tədarükçüsüdür.

Azərbaycan isə Ermənistandan fərqli olaraq, özünün silah tədarükünü çoxdan şaxələndirib. Başqa sözlə, biz maliyyə resurslarımız hesabına modern döyüş sistemlərini başqa ölkələrdən *(İsrail, Türkiyə, Pakistan, Belarus, Ukrayna, Çexiya)* da ala bilərik və yəqin ki, elə də olacaq. Demək, Rusiyadan silah asılılığımız azala bilər ki, bu da az önəm daşımır. Ermənistan isə yalnız Rusiyanın əlinə və cibinə baxır, kreditlərinə bel bağlayır. Bu mənada ABŞ-ın yeni sanksiyaları Azərbaycana seçim riski yaratmaqla yanaşı, əslində fürsət də aça bilər.

Əcnəbi ekspertlərin bu xüsusda 2018-ci illə bağlı təxminləri və gözləntiləri maraq doğurur.

*****

“ABŞ-ın Rusiyanın hərbi-sənaye müəssisələrinə qarşı yeni sanksiyaları üçüncü ölkələri Rusiya silahları almaqdan çəkindirə bilər”. “Yeni Müsavat” xəbər verir ki, bu sözləri “Amerikanın səsi”nə müsahibəsində ABŞ-ın Xarici Siyasət Şurasının tanınmış analitiki Stiven Blank söyləyib. “Pis olmazdı əgər bu yolla rus silahlarının Cənubi Qafqaza girişi dayansaydı. O halda, münaqişə tərəflərinin sülhə gəlməsi bəlkə də asanlaşardı”, - deyə o qeyd edib.

**Ekspertin sözlərinə görə, baxmayaraq ki, bəzi istisnalar ediləcək, Azərbaycan və Ermənistan kimi Rusiya silahlarının iri alıcıları, hər halda, sürprizlərlə üzləşə bilərlər:** “Sanksiyalar hökumətlərə qarşı da tətbiq oluna bilər”.

**Analitik Şuranın eksperti, sabiq səfir Con Herbst öz növbəsində hesab edir ki, Rusiya silahlarının alıcılarına qarşı sanksiyalar ehtimalı yüksək olmasa da, onlar bir şeyi nəzərə almalıdırlar:** “Sanksiyalar altında olan şirkətlərlə işbirliyinə girənlər müəyyən nəticələrə də hazır olmalıdırlar”.

**Herbstə görə, Kremlin SSRİ-ni bərpa eləmək səyləri də nəzərə alınarsa, Rusiyaya qarşı sanksiyalar qaçılmazdır:** “Əgər Putin keçmişi qaytarmaq istəyirsə, o zaman biz də onu zəiflətməli və onun situasiyaya təsir resurslarını məhdudlaşdırmalıyıq”.

**Amerikalı analitiklərin qənaətincə, sanksiyalar artıq Rusiya elitasına təsir göstərməkdədir.** “Sadə dildə desək, sanksiyalar onları məhv edir” - Stiven Blank hesab edir. Onun sözlərinə görə, Ermənistanın maraqları tələb edir ki, tezliklə Moskvanın pressinqindən çıxsın və hamı ilə bərabər münasibətlər qursun. “Lakin Dağlıq Qarabağ konflikti nizamlanmayınca, bu, baş verməyəcək. Türkiyə də blokadanı götürməyəcək”.

*****

**Maraqlıdır ki, bu arada ABŞ-dan Gürcüstana xüsusi qrupun gələcəyi anons edilib. İnformasiyanı “Kviris Palitra” qəzeti yayıb (axar.az). Qəzet xüsusi qrupun ölkədəki təhlükəsizliyin vəziyyəti və onun gücləndirilməsi imkanlarını öyrənəcəyini bildirib. Nəşrə açıqlama verən gürcü hərbi ekspert Mamuka Areşidze ölkənin əsas probleminin hazırda sərhəd məsələsi olduğunu söyləyib.**

“Gürcüstanın sərhədinin müdafiə olunmaması əsas problemdir. Bundan əlavə, Gürcüstanda çoxlu təhsil müəssisəsi var ki, burada gürcü təhsil sistemi yayılmayıb. Heç kim bilmir ki, gənclər burada nə təhsili alırlar. Belə situasiya terrorçu qruplar üçün münbit şərait yaradır. Son dövrlər sosial şəbəkələrdən də təhdid yaranıb. Terrorçu ideologiyalar burada aktiv şəkildə yayılırlar. Gürcüstan xüsusi xidmət orqanları bunların hamısı ilə bacarmaq gücündə deyil. Xüsusi qrup təkcə Gürcüstan yox, bütün regionun təhlükəsizliyinin tədqiqatı üçün gələcəyini bildirib”, - o sonda vurğulayıb.

Söhbət şübhəsiz, həm də regionun aparıcı dövləti kimi Azərbaycanın və strateji əhəmiyyətli neft-qaz xətlərinin təhlükəsizliyindən gedir. Yeri gəlmişkən, bu il Azərbaycan (“Şahdəniz-2”) qazını Avropaya çatdıracaq Cənub Qaz Dəhlizinin mühüm bir hissəsi olan TANAP işə düşəcək. Daha sonra TAP-a birləşəcək bu kəmər qitənin Rusiyadan enerji asılılığının azalmasında mühüm önəm kəsb edən meqa-layihə hesab olunur.

Bunu da əlavə edək ki, ABŞ Dövlət Departamentinin beynəlxalq energetika üzrə xüsusi elçisi və koordinatoru səlahiyyətlərini icra edən Syu Saarniyo gələn ay Bakıya səfər edəcək. “Yeni Müsavat”ın məlumatına görə, Departament rəsmisinin bildirib ki, xüsusi elçi Cənub Qaz Dəhlizi Məsləhət Şurasının 4-cü iclasında iştirak edəcək.

Rusiya və NATO generallarının planlaşdırılan görüşü də daxil, bu il Azərbaycanın episentrdə olduğu bir sıra digər mühüm hadisələr də gözlənilir.

❑ **“Yeni Müsavat”ın analitik xidməti**

# “Siqaretim yana-yana...”



**Samir SARI**

**Çox yaxşı qanundur, onu yaradanlara şəxsən öz adımdan, eləcə də metro tunelində, liftdə, stadionda, dayanacaqda və sair və ilaxır ictimai yerlərdə siqaret çəkənlərin ağzının üstündən (siqaret ağızda olduğu vaxt) şillə tutuzdurmaq istəyən həmvətənlərim adından təşəkkür edirəm.**

İctimai yerlərdə siqaret çəkilməsinin məhdudlaşdırılması haqqında qanunun qüvvəyə minməsi dediyim yerlərdə siqaret tüstülədənlərin ağzının üstünə çəkilmiş şapalaqdır. Daha bizə ehtiyac olmadı. Adama 5-6 yüz, bəlkə də 1-2 min manat irəliyik.

Çünki açığı, mən öz binamızdakı liftin içində siqaret çəkən yaramazı hərləyirəm, bir gün qoluma qolay olsa da, olmasa da, adamla tutaşmaq kimi eksklüziv hüquqlarımı özümdə saxlayıram. Güman ki, o işi görən bir nəfər də deyil. İndi fikrim var, printerdən liftdə siqaret çəkməyin cəriməyə səbəb olması barədə bir elan çıxartdırıb aparım, silinməyən folmasterlə liftin divarına yazılmış “Elviza, mən səni sevmişəm” elanının üstündən yapışdırım. Beləcə, 15 il qabaq ərə getmiş Elvizanın (əslində bəlkə də Elviranın - sevən gədə z ilə r-ni qarışdırıb güman ki ) reputasiyası əbədi elandan zərər, elanı oxuyan yaramaz isə siqaret çəkməsin.

Hazırda antisiqaret kampaniyası şiddətlə vüsət almaqdadır. İaşə obyektlərinə reydlər keçirilir, jurnalistlər qanun-qaydaya uymayan kafe-restoranların adlarını çəkir, ünvanlarını tuşudurlar. Düzdür, cəmiyyətin siqaret aludəçisi olan və bu tütün məmulatını ürəkləri istədiyi yerdə çəkməyi məqbul sayan kəsimi bu cür hərəkətləri işverənlik sayır, amma eybi yox, qoy işverənlik olsun, əvəzində xalqın canı sağlam olar.

Deyim ki, bu qayda-qanun Avropanın “tərbiyəsiz və pozğun” ölkələrinin hamısında, özü də lap çoxdan var. 5-6 il əvvəl ilk dəfə Ukraynda olanda, Kiyevin mərkəzi küçələrində fikir verdim ki, havanın soyuq olmasına baxmayaraq, qadınlar ofis paltarında iş yerinin qabağında dayanıb üşüyə-üşüyə siqaret çəkirlər. Şəhərə bələd olan dostumuz dedi ki, burda qapalı yerə siqaret çəkməyə icazə yoxdur, cəriməsi var, ona görə indicə gördüyün “qəşəng xoxluşkalar” (belə dedi) çıxıb soyuq küçədə siqaret və əziyyət çəkirlər.

Sonra kişili-qadınlı bir dəstə jurnalist axşamüstü bir iaşə müəssisəsinə getdik ki, bir qismət çörək yeyək. Elə addımımızı restorandan içəri qoymuşduq ki, gördük, bir dənə boş yer yoxdur, üstəlik, içəridə siqaret tüstüsündən göz-gözü görmür. Qayıtmaq, başqa yerə getmək istədik, amma restoranın administratoru yaxınlaşdı, xəcalət çəkə-çəkə dedi ki, siqaret çəkilməsinə icazə verilən salonda yerimiz yoxdur, amma siqaretin yasaq olduğu bölmədə yer var. Bay! Halvaçı qızı daha şirin. Keçdik həmin zala. Gördük, masaların ən azı yarısı boşdur, içəridə tam sakitlikdir və salondan necə deyərlər, müşk-ənbər iyi gəlir.

O biri tərəfdə isə siqaret tüstüsündən göz və burun, səs-küydən qulaq tutulurdu və bayırda dayanıb o iyrənc salonda 3-4 yerin boşalmasını gözləyənlər vardı.

Şükür o gözəgörünməzə ki, bu qayda-qanun bizə də gəldi və biz siqaret tüstüsündən azad ictimai məkanlar görəcəyik.

İndi bir çoxları deyir ki, bu qanunun işləməsi çətin olacaq. Guya ki, ona riayət etmək istəməyənlər, müqavimət göstərənlər tapılacaq. Əlbəttə, belə şeylər mümkündür.

Amma əmin ola bilərsiniz ki, bunu hamı edə bilməyəcək və edənlər bir gün ilişib cərimələnəcəklər. Belə qanunlar həmişə müqavimətlə üzləşir. İnsanlar öz köhnə vərdişlərindən əl götürə bilmirlər. Amma bir-iki dəfə cərimə olunandan sonra quzuya dönürlər. 6-7 il qabaq maşın sürəndə təhlükəsizlik kəməri taxan da yox idi, hətta taxanlara pis baxırdılar. İndi hamı taxır. Bəzən taxmayanlar olur, amma onlar da hərdən yol polisi ilə mübahisədə o qədər əsəbiləşirlər ki, az qalırlar kəmərlə özlərini boğsunlar.

Mədəni ölkələr, bilirsiniz, necə mədəniləşiblər? Onları qanun-qaydalara cərimə-edə-edə riayət etdiriblər, məcbur qalıb mədəniləşiblər. Özbaşına qoyulsaydı, bəlkə bu saat Rusiya kişiləri dizə düşən saqqalla gəzərdi. Amma dəli Pyotr dedi, a nu ka, qırxmalısınız, borodatıe svoloçi... Mujiklər də saqqallarını qırxıb mədəni oldular. Yəni elə görünməyə başladılar.

Bəs bu qanundan sui-istifadə halları olacaqmı? Əlbəttə, olacaq. Məsələn, kiminsə əlinə yanılı siqaret verib göndərəcəklər iaşə müəssisəsinə, ofisiant ona “burda siqaret çəkmək olmaz”ı başa salınca, təftişçi içəri girib deyəcək, burda siqaret çəkilib, cərimə yazıram...

Bu, bizim mental dəyərlərimizdə var, qaçılmazdır.

## Vergilər Nazirliyində “təmizləmə”-Fazil Məmmədovun müşavirləri qovuldu


Mikayıl Cabbarov

**Vergilər Nazirliyində yeni nazirin təyinatından sonra aparılan islahatlar çərçivəsində indiyə qədər 64 nəfər yüksək vəzifəli məmur öz kresloları ilə vidalaşmalı olub. Bu barədə Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən məlumat verilib. (Trend)**

Məlumatda bildirilir ki, vergi inzibatçılığının təkmilləşdirilməsi, daha çevik idarəetmə mexanizmlərinin tətbiqi və yeni çağırışlara cavab verən vergi sisteminin formalaşdırılması məqsədilə Vergilər Nazirliyində struktur və kadr islahatlarına başlanılıb.

Nazirliyin strukturunun yenidən təşkili, eyni zamanda onun fəaliyyətini müəyyənləşdirən institusional dəyişikliklərin aparılmasına istiqamətlənən islahatlar ölkədə sahibkarlıq və investisiya mühitinin yaxşılaşdırılması, biznesin inkişafında süni maneələrin aradan qaldırılması, cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması, partnyorluq münasibətlərinin tərkib hissəsi olaraq vergi ödəyicilərinin öz öhdəliklərini yüksək səviyyədə yerinə yetirməsi məqsədi daşıyır.

Bununla əlaqədar olaraq, vergilər nazirinin müvafiq əmrləri ilə 64 nəfər vergi xidməti əməkdaşı tutduğu vəzifədən azad edilərək nazirliyin sərəncamına götürülüb ki, onların arasında nazir müşavirləri, struktur bölmə rəhbərləri və digər vəzifəli şəxslər var.

## Leyla Şıxlinskayaya 8 milyonluq ittiham



**Bakıda məşhur klinikanın rəhbərinə cinayət işi açılıb. Lent.az-ın əldə etdiyi məlumata görə, “Leyla Şıxlinskaya” klinikasında aparılan araşdırmalar zamanı müəssisənin rəhbəri Leyla Şıxlinskayanın 8 milyon manat vergidən yayındığı aşkarlanıb.**

Hazırda Vergilər Nazirliyinin istintaq idarəsində araşdırma aparılır. Xatırladaq ki, həmin klinika ilə daha bir mənimsəmə işi hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində araşdırılır.

Belə ki, “Leyla Şıxlinskaya” klinikasının mənimsəmədə və vergidən yayınmada təqsirləndirilən keçmiş baş mühasibi Şəhla Abbasova, Polad Əliyev, Səkinə Qasımova, Aytən Hüseynova, Mədinə Hüseyeva, Yelena Abdullayevanın işi də ayrıca icraatda aparılır. Təqsirləndirilən şəxslər klinikanın sahibi Leyla Şıxlinskayanı, o isə keçmiş işçilərini ittiham edir.




Əli Abdullayevə kompensasiya əvəzi verilməsi adı ilə tikilən, ona verilməyən obyekt

# İcra başçısı Gədəbəyi qarış-qarış zəbt edib

## Ramiz Yediyarov rayonda sahibkarlara qan uddurmaqda davam edir

**Sabiq vergilər naziri Fazil Məmmədovun Şəmkir rayonunda bütün gəlirli sahələrə əl qoyması haqda ötən saylarımızda dərc olunan reportajda ətraflı məlumat vermişdik. Şəmkirdəki durum belədir - gözünü yum və əlini hər hansı bir istiqamətə tuşla. Ətrafındakılar barmaqlarının Fazil Məmmədovun zavodu, quşçuluq fabriki, restoranı, hoteli, çayxanası, çörək zavodu, istirahət mərkəzi, gölü, istixanası və hətta özəl meşəsinə tuşlandığını deyəcəklər. Bəli, Şəmkirdən Gədəbəy istiqamətinə irəliləsən və gözün meşəyə sataşsa, tərəddüd etmədən rahatca “bura da Fazil Məmmədovundur” deyə bilərsən və yanılmayacaqsan.**

Gədəbəyin Yasamal aşırımlarındakı “Yastı meşə”si də məhz Fazil Məmmədovun nəzarəti altındadır, orada dəbdəbəli imarətlər inşa etdirib. 1 gün də olsun oralardakı imarətlərdə yaşamasa da, Şəmkir və Gədəbəydən olan sakinlər daha oralara istirahətə gedə bilmirlər. Həmin meşələr onların üzünə həmişəlik bağlanıb.

Gədəbəyin özündə isə Fazil Məmmədovun kadrı Ramiz Yediyarov “balaca padşah”lıq edir. İş adam Fəxrəddin Bağırovun başına açdığı müsibətlər haqda ötənlərdə yazmışdıq. Vaxtilə vergi işçisi olmuş Ramiz Yediyarov 3 ay əvvəl yuxusuna haram qatıb plan cızmış, səhər isə sahibkarın obyektinə hücum təşkil etmişdi. Öz hikkəsinə rayondakı dövlət qurumlarının nümayəndələrini də bulaşdıran icra başçısı sahibkarın obyektinin qapı-pəncərələrini, darvazasını daşla hördürmüşdü. Fazil Məmmədov büdrəyəndən sonra Ramiz Yediyarov qorxuya düşüb obyektin qonşuluğundakı həyətdən ora yol açdırmışdı. Rayona sonuncu səfərimiz zamanı sahibkarın obyektinin qapılarını hörülmüş gördük. Yerli sakinlərdən xəbər aldıq, dedilər ki, Fəxrəddin Bağırov rayondan 3 ay əvvəl çıxandır və geri qayıtmayıb. Obyekt isə ağzı günə qalıb, fəaliyyətsizdir. Vergi işçisi olan başçı bir sahibkarı beləcə vergi ödəməkdən, büdcəyə xeyir verməkdən uzaqlaşdırıb. Obyektdə çalışanları da işsiz qoyub.

Sən demə, gözdən-könüldən uzaq Gədəbəydə Ramiz Yediyarovun işi elə sahibkarlara qarşı qanunsuzluqlar etməkdən ibarətmiş...

Gədəbəydə ilk diqqətimizi cəlb edən Şəhidlər Xiyabanı qarşısında yöndəmsiz inşa olunan yanacaqdoldurma məntəqəsi oldu. Öyrəndik ki, məntəqə başçının göstərişi ilə tikilib. İllər əvvəl bir sahibkarın sökülmüş obyekti əvəzinə ona verilməli olub. Sahibkar gəlib, məntəqəyə baxıb və onu qəbul etmək istəyib. Başçının adamları ona deyiblər ki, sənəd-filan olmayacaq, yoxdur. Yəni məntəqə qanunsuz tikilib. İcra başçısının qəbuluna gedən sahibkar məsələni aydınlaşdırmaq istəyib. Lakin İcra hakimiyyəti binasında quraşdırılan polis, şəxsi cangüdən və katibə postlarını keçib başçısının qəbuluna düşə bilməyib. Bəli, Ramiz Yediyarovun qəbuluna düşmək üçün 1 turniket və 3 post keçməlisən. Dəmiraxtaranla başdan-ayağa kimi yoxlamaya hazır olmalısan. Bir sözlə, prezidentin məmurlara, icra başçılarına yönəlik çıxışlarında sadəlik, xalqa xidmət kimi çağırışlarını Gədəbəy İcra Hakimiyyətində əxz edən yoxdur.

Sakinlər deyirlər ki, obyekti sökülərkən sahibkara hər cür dəstək vəd edən Ramiz Yediyarov sonradan ondan gen gəzib. Odur ki, Şəhidlər Xiyabanı önündə qanunsuz tikilən məntəqə işə başlamayıb. Sahibkarın müxtəlif orqanlarına şikayətlərini də icra başçısı önləyə bilib. Yerli sakinlərdən öyrəndik ki, başçı bu obyekti satmaq üçün illərdir müştəri axtarır, məntəqə qanunsuz tikildiyindən kimsə ora yaxın düşmür. Üstəlik, digər iş adamları obyekti dağıdılmış sahibkarın haqqına girmək istəmirlər. Bundan başqa, məntəqə faktiki olaraq barıt çəlləyini xatırladır. Yetər ki, məntəqədəki çənlərə benzin və ya digər tez alışan maye doldurulsun. Səbəb də budur ki, obyekt qaz kəmərinin yaxınlığında və 10 kilovoltluq elektik xəttinin altında tikilib. Adi bir ehtiyatsızlıq, qığılcım ərazidə böyük bir partlayış, yanğının meydana gəlməsinə səbəb ola bilər...

Mərhum iş adamı Əli Abdullayevə qarşı Ramiz Yediyarovun törətdiklərini isə Gədəbəydə bilməyən az adam var. Rayondakı ilk özəl hotelin sahibi Əli Abdullaeyvə heç bir kompensasiya ödəmədən obyekti bir gecənin içində uçurulmuşdu. Uzun-uzadı çəkişmələrdən sonra başçı obyektin qanunsuz söküldüyünü etiraf edərək iş adamına Gədəbəyin Heydər Əliyev prospektində 3 mərtəbəli bina tikib veriləcəyini bildirmişdi. Bu sövdələşmədən az sonra Əli Abdullayev qəfil və müəmmalı şəkildə dünyasını dəyişdi. Yerli sakinlər Əli Abdullayevə verilməli olan 3 mərtəbəli binanın tikintisinin çoxdan başa çatdırıldığını, amma mərhum sahibkarın vərəsələrinə, ailəsinə verilmədiyini deyirlər. Ramiz Yediyarovun həmin əmlakı da digər şəxslərə satmaq planının varlığı haqda danışırlar. Hazırda başçının göstərişi ilə binada Gədəbəy rayon Uşaq Yaradıcılıq Mərkəzi yerləşir. Sakinlər deyir ki, mərkəzin binası daha perspektivli yerdə olduğu üçün başçı “hamam suyundan özünə dost tutub”. Sahibkarın obyektini dağıdıb, ona kompensasiya olaraq vəd edilən tikilini isə mərkəzə verməklə bu qurumun əvvəlki əmlakını da öz mal-mülkünə qatıb. Heydər Əliyev prospektindəki binanın yerləşdiyi torpaq sahəsi isə başçının etibarlı adamı, YAP Gədəbəy rayon təşkilatının sədri Rüstəm Nağıyevin anası Xalidə Ehsan qızının adına rəsmiləşib. Ərazidə çəkiliş apararkən məlum oldu ki, bu bina da qaz xəttinin yaxınlığında inşa olunub...

Şəmkirdə Fazil Məmmədov hər tin-bucaqda korrupsiya pulları hesabına obyektlər tikdirməklə ad çıxarıbsa, onun Gədəbəydəki kadrı Ramiz Yediyarov sahibkarların obyektlərini dağıtması ilə “şöhrət” tapıb. Söküntü işləri icra başçısına bir tərəfdən perspektivli torpaq sahələrinə “əl qoymağa” imkan verib, digər tərəfdən isə yeni inşa edilən obyektlərin onun “çətiri” altına yığılmasına yol açıb. Sahibkarların obyektləri dağıdılan günlərdə Ramiz Yediyarov rayonun 20 Yanvar küçəsində ticarət mərkəzi tikdirib. Sahibkarlara da həmin mərkəzdə obyektlər veriləcəyi vəd olunub. Sənəd-sübutlu obyektləri dağıdılan sahibkarlar ticarət mərkəzinin 10 və 35 kilovoltluq elektrik xətlərinin altında yerləşdiyini və ərazinin ticarət üçün əlverişsizliyini görüb ora köçməyə həvəs göstərməyiblər. 10 və 35 kilovoltluq elektrik xətlərinin dəmir dayaqları bu mərkəzin ərazisindədir. Xırda bir nasazlıq yüksəkgərginlikli xətlərin əraziyə düşərək, hər an böyük faciəyə səbəb ola biləcəyini söyləməyə əsas verir. Ərazidə tikinti aparılmasını tapşıran Ramiz Yediyarov belə bir olay baş versə, yəqin ki, yaxasını kənara çəkəcək. Deyəcək ki, tikintidən xəbəri olmayıb. Ortada Binəqədidə bina yanğını zamanı Xaləddin İsgəndərovun özünü necə aparması, 1-ci müavinini “rasxod”a verməsi nümunəsi var.


Başçının qanunsuz tikdirdiyi yanacaq doldurma məntəqəsi


Slavyanka kəndində əkin sahələrinin tən ortasında zəbt olunan torpaq



35 kilovoltluq elektrik xətlərinin altında qanunsuz tikilən ticarət mərkəzi

Ramiz Yediyarovun pay torpaqlarını payi-mal etməsi də rayonda müzakirə mövzularındandır. Dağlar qoynundakı Gədəbəydə gözəgəlimli bir yer oldusa, “əkin sahəsidir”, “təyinatı başqadır” kimi qadağalar işə yaramır. Gədəbəydə bir qanun işləyir - Ramiz Yediyarovun qanunları. Slavyanka kəndində də bunu bilməyən yoxdur. Başçı qəbiristanlıqdan bir qədər yuxarıda yerləşən pay torpağında tikinti aparılmasını əngəlləməyib. Daş töküb, əkin sahələrinin tən ortasında hasar çəkiblər, ev tikilməsi üçün hazırlayıblar. Əlbəttə ki, başçının göstərişi, razılığı olmasa, kimsə daşı daş üstə qoya bilməz. Bunu Gədəbəydə bilməyən yoxdur. Nə vaxtsa bir rayonda sahibkarlığın necə çökdürülməsi haqda kitab yazılsa, müəllifin Ramiz Yediyarovun fəaliyyətini təftiş etməsi yetər...

❑ **“Yeni Müsavat”ın Reportyor Qrupu**

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

**Milli Məclisin və Müsavat Partiyasının keçmiş rəhbəri, MSDM başqanı İsa Qəmbər 28 il öncə AXC-nin III konfransı ilə bağlı 3-cü məqaləsini facebook səhifəsində paylaşıb. 6-7 yanvar tarixli məqalələri kimi bu yazısı da kifayət qədər maraq doğurub. Yanvarın 29-na qədər bu tipli yazılarını davam etdirəcəyini bildirən İsa bəy son yazısında kifayət qədər maraqlı faktları sadalayıb, hər kəsin marağına səbəb olan məqamlara toxunub.**

# Fəzail Ağamalı İsa Qəmbərin iddialarını cavablandırdı

## Deputat: "Əslində Xalq Cəbhəsi iki qanada deyil, bir neçə qanada bölünmüşdü..."





**Əvvəlcə sabiq spiker əvvəlki iki məqaləsinin böyük maraq doğurduğunu, açıqladığı faktların əksəriyyət tərəfindən təsdiqləndiyini və mövzunun davam etdirilməsini istəyənlərin kifayət qədər çox olduğunu vurğulayıb. Daha sonra "Yeni Müsavat"da ilk məqaləsinə münasibət bildirən Hikmət Hacızadə və Nemət Pənahlıya təşəkkür edən İ.Qəmbər N.Pənahlının səsləndirdiyi bir ittihama toxunub:** "Hər zaman olduğu kimi yalan-palan danışmaqdan özünü saxlamayıb. Məsələn, deyir ki, "AXC-nin Təşəbbüs Qrupuna adım Əbülfəz bəy tərəfindən salınmışdı". Belə deyil. Etiraf edim ki, N.Pənahlının AXC Təşəbbüs Mərkəzinə daxil edilməsini mən təklif və təkid etmişdim, ondan Lex Valensa düzəltmək fikrindəydim. Alınmadı".

**Ardınca İsa Qəmbər yazır:** "Toplantıda iştirak etmədiyim üçün bu yazım daha qısa olacaq. Evdə idim, heç yerə çıxmadım, istirahət etdim. Doğrusu, Məclisdə nə baş verdiyi ilə də xüsusi maraqlanmadım. Düşünürdüm ki, İH-yə namizədliyimizi verməmişik, bizi seçməyəcəklər. Artıq xalq hərəkatına rəhbərlik edən AXC-nin sıravi üzvü olacağam və tarixi qərarlara görə də məsuliyyət daşımayacam. Fikirləşirdim ki, bir neçə gündən sonra dostlarla görüşərəm, qurmaq istədiyimiz təşkilat barədə məsləhətləşmələri davam etdirərik. Hesab edirdim ki, quracağımız təşkilat AXC-yə alternativ və ya rəqib olmamalıdır. Amma necə deyərlər, sən saydığnı say, gör fələk nə sayır..."

**Daha sonra sabiq başqan yazır:** "Axşam hardasa saat 11-də ev telefonuma zəng gəldi. Zəng edən Fəzail Ağamalı idi. Fəzail müəllim məni təbrik etdi, dedi ki, ən yüksək səslə İH-yə seçilmişəm. Doğrusu, təəccübləndim, dedim ki, "necə yəni seçiblər, axı mən namizədliyimi irəli sürməmişəm və heç kimə belə bir səlahiyyət verməmişəm". Dedi ki, Məclisin qərarı belə oldu. Sonra da Ə.Tahirzadənin qeydlərində adıçəkilən hər kəsin necə səslə seçildiyini, seçilməyənlərin də necə səslə İH-dən kənarda qaldığını bir-bir diktə etdi, mən də kağız-qələm götürüb qeydiyyat apardım. F.Ağamalı özünün də namizəd olduğunu, amma seçilmədiyini qeyd etdi. Bu zəngdən 30-40 dəqiqə sonra Pənah Hüseyn və Arif Hacılı bizə evə gəldilər. Məclisin nəticələrindən xəbərdar olduğumu bilib bu dəfə onlar təəccübləndi. Fəzail Ağamalının zəngini deyəndə güldülər və onun Məclisə rəhbərlik etmək cəhdinin qarşısının necə alındığını danışdılar..."

**Yazıda adı keçən Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı həmin konfransı detallarına qədər xatırladığını bildirdi:** "Mandat Komissiyasının sədri kimi konfransda funksiyamı yerinə yetirirdim. Rayonlardan kimlər gəlməli, kimlər konfransda iştirak etməlidir kimi siyahı əlimdə var idi. O zaman konfransın keçirildiyi yerin giriş qapısında fəal cəbhəçilər yer alıb, heç kimi buraxmaq istəmirdilər. Məhz əlimdə olan siyahıya əsasən, insanlar zala daxil ola bilirdilər. Konfrans kifayət qədər ziddiyyətli, gərgin keçmişdi. Orada İsa Qəmbərin rəhbərlik etdiyi "liberal" qanad var idi. Bunu onun özü də etiraf edir. Əbülfəz Elçibəyin barışdırıcı mövqe tutan mövqeyi var idi. Nemət Pənahlı, Etibar Məmmədov, Rəhim Qazıyev tamam fərqli, Zərdüşt Əlizadə, Leyla Yunus və Ələkrəm Hümmətov də tam başqa mövqedə idilər. Onların əksəriyyəti AXC-nin İdarə Heyətində təmsil olunurdular. Əslində Xalq Cəbhəsi iki qanada deyil, bir neçə qanada bölünmüşdü. Elçibəy daha çox barışdırıcı mövqe tutmağa çalışırdı. Elçibəylə Nemət Pənahlı arasındakı qarşıdurmanı da xatırlayıram. Mənə elə gəlir ki, məhz bundan sonra Nemət bəy artıq Xalq Cəbhəsindən aralanmış oldu. Sonradan Etibar Məmmədov, Rəhim Qazıyev, Nemət Pənahlının yaratdıqları Milli Şura buna sübutdur. İsa bəyin qeyd etdiyi həmin konfrans başa çatmadı, təxirə salındı. Konfrans başqa məkana keçirildi və orada idarə heyətinin formalaşması məsələsi ortaya qoyuldu. Namizədlərin adı səsləndirildi. Həmin vaxt AXC-nin Səbayel üzrə əlaqələndiricisi idim, Məclisdə təmsil olunurdum, Xalq Cəbhəsinin təsisçilərindən biri idim. Namizədliyim irəli sürüldü. Konfrans günü yaxşı yadımdadır ki, həmin gün İsa bəyə və Etibara bəyə zəng vurdum, onlar arasında ortaq nöqtənin tapılması arzumu ifadə etdim. Onları İsa Qəmbərin evində görüşdürdüm. Həmin vaxt evdə İsa Qəmbər və rəhmətlik Nəcəf Nəcəfov var idi. Onlar arasında söhbət çox gərgin keçdi və onları eyni mövqeyə gətirmək arzumu reallaşdıra bilmədim. Demək olar, bu görüş nəticəsiz bitdi. Namizədliyim idarə heyətinə səsvermədə keçmədi, cəmi 2-3 səsim çatmadı. Lakin AXC-nin Məclis üzvü olaraq qaldım. Konfrans bundan sonra başa çatdı və idarə heyəti tam formalaşdı. Həmin günlərdə Azərbaycan qaynayırdı. Bakıya xəbər çatırdı ki, sovet qoşunları ətraflardan Bakıya toplaşır. Yanvarın 11-də Bakıda mitinq keçirilən zaman Tofiq bəy və Elxan bəyin dəvəti ilə Tovuza getdim. Yanvarın 12-də Tovuzun mərkəzində biz mitinq keçirdik. Həmin gün mənə məlumat çatdı ki, Xanlara (indiki Göygöl) ermənilər hücum etdilər. Elçibəylə danışıb, ora getdim. Yanvarın 22-nə qədər orada oldum. Cəbhənin yerli sədri ilə birlikdə könüllülərə rəhbərlik edib, Xanların iki kəndini ermənilərdən təmizlədik, bizdən itki olmadı, ermənilərdən 15-16 nəfər, eyni zamanda ruslardan iki əsgər qətlə yetirildi. Bunları ona görə deyirəm ki, orada olanda 20 Yanvar faciəsi Bakıda törədildi. Faciədən sonra AXC-də qütbləşmə daha da dərinləşdi. Radikallarla liberallar arasında münasibət daha kəskin xarakter aldı. O vaxt məsələlərə öz müstəqil yanaşmaları olanlar var idi ki, mən onların içərisində idim. O vaxt Məclisin katibliyi funksiyası meydana çıxdı və bunu mən öz üzərimə götürdüm. Bölgələrdə konfransların stenoqramlarını kitab kimi dərc etdirdim. Mövqeyim artıq liberalları qane etmirdi. Etiraf edim ki, Heydər Əliyevə olan simpatiyamı dilə gətirib önə çəkməyim Hikmət Hacızadə səviyyəsində dilə gətirildi ki, bu Heydər Əliyevin adamıdır. Onların tərəfdarları mənə qarşı haqsız hücuma keçdilər. Bu səbəbdən Məclis üzvlüyündən istefa verdim. İyun ayında keçirilən iclasda və İsa Qəmbərin rəhbərlik etdiyi qrupun, Tamerlan Qarayevin ciddi səyləri ilə AXC Məclisinin katibi seçilmədim. Bundan sonra AXC-dən istefa verdim və partiya yaratmaq haqqında düşündüm. Yaratdığım partiyada etiraf edim ki, Qabil Hüseynlinin çox böyük əməyi oldu. Elçibəyin də belə bir partiyanın yaradılmasına marağı var idi və partiyamızın yaranmasına xoş münasibət sərgilədi. Çox güman ki, İsa bəy bu məsələləri nəzərdə tutub. Dəqiq yadımda olmasa da, ola bilər ki, İsa bəyə zəng edim, onu idarə heyətinə seçilməsi münasibətilə təbrik edim. Onu təbrik etməyim mümkündür. İsa bəy düz deyir, konfransda iştirak etmirdi".

❑ Cavanşir ABBASLI
"Yeni Müsavat"



# DİN mətbuat xidməti mayor "xəbəri"nə aydınlıq gətirdi

## Ehsan Zahidov: "Qərəzdən yoğurulmuş əsassız və uydurma bir iddiadır"

**Son günlər bəzi mətbuat orqanlarında bir polis mayorunun öz vəzifəsindən və çalışdığı qurumun nüfuzundan istifadə edərək 30-a yaxın vətəndaşın ümumilikdə milyonlarla manat təşkil edən pullarını mənimsədiyi barədə xəbərlərə rast gəlinir. Bununla bağlı DİN-in mətbuat xidmətinin rəisi Ehsan Zahidova müraciət etdik. Musavat.com-a açıqlama verən xidmət rəisi bildirdi ki, heç bir konkret fakta söykənməyən bu uydurma və qərəzli "xəbər"i yayan mətbuat orqanları deyil, adını çəkib şərəfləndirmək istəmədiyi yalnız bir saytdır: "Məqsədli şəkildə tamamilə qərəzdən yoğurulmuş əsassız və uydurma bir iddiadır. O "əldəqayırma" xəbəri hazırlayıb paylaşanlar öz azsaylı oxucularını aldadaraq qeyd etdikləri 30 nəfər "zərərçəkən"in hamısının da olmasa, heç olmasa ikisinin, üçünün ad və soyadlarını desinlər. Kimdi bu 30 nəfər? Deyə bilmirlər, ona görə ki, ortada belə bir fakt yoxdur".**

E.Zahidov daha sonra deyib: "DİN rəhbərliyinin bu istiqamətdə tutduğu prinsipial və barışmaz mövqeyi sayəsində öz hərəkəti, davranışı ilə vətəndaşın haqlı narazılığına səbəb olan polis əməkdaşı heç vaxt cəzasız qalmayıb. Əgər bu "nağıl"da qeyd olunanlar uydurma deyil, həqiqət olsaydı, şübhəsiz ki, həmin əməkdaşın da barəsində qanunamüvafiq qaydada lazımi tədbir görülərdi.

Yeri gəlmişkən, vətəndaşlarımız da yaxşı bilir və bu artıq danılmaz bir faktdır ki, insanların üzləşdikləri hər hansı bir problemlə bağlı Daxili İşlər Nazirliyinə ölkənin istənilən nöqtəsindən müraciət etmələri üçün hər cür şərait yaradılıb. Elə bunun nəticəsidir ki, DİN-in "102-Zəng Xidməti"nə, elektron poçt ünvanlarına, ərazi polis orqanlarına hər hansı bir məsələ ilə əlaqədar daxil olan yüzlərlə belə müraciətin hər biri müvafiq qaydada araşdırılır və nəticəsindən asılı olaraq hüquqi qiymət verilir".



# Avtobus sürücüsünün ayıları

Zamin HACI
zaminhaci@gmail.com

**Həyat ağ və qara rənglərdən ibarət deyildir, müsbət şeyləri də görməliyik. Örnək üçün, mən bugünlərdə bir avtobusa minmişdim, sürücünün sifətindən zəhrimar yağırdı, saç-saqqalını da böyük ehtimalla axırıncı dəfə AXC-Müsavat cütlüyünün hakimiyyəti illərində qırxdırmışdı (bəlkə o zaman da təşəbbüs özündən olmayıb, "oblavada" tutub Qarabağa aparmaq istəyəndə komissarlıqda qırxıblar). Ancaq bu qardaşımızın başının üstündən, avtobusun salonundan nə az, nə çox, düz 9 yumşaq ayı oyuncağı, bundan cəmi iki dənə az da smaylik oyuncağı asılmışdı! Riyazi savadımı nümayiş etdirmək çıxmasın, orada üst-üstə 16 ədəd yumşaq oyuncaq vardı.**

Möhtəşəm idi. Nə qədər qanıqara olsan, Qarabağ probleminin sülh yolu ilə həllini, Binəqədi icra hakiminin alver yolu ilə həllini, nə bilim, Amerikada Aya getmiş astronavtın bu dəfə rəhmətə getməsini fikirləşsən də bu avtobusun salonuna girmək yetərli idi ki, adamın üzü gülsün, ağzı ayrıq qalsın. Mən uca millətimizi bu cür müsbət enerjisinə görə sevirəm. "Filankəs ölüb, filan yeri xam saqqız çeynəyir" *(tam variantını ağsaqqal və ağbirçəklərimizdən soruşun, bura yazmaq imkansızdır)* - belə fantastik ata sözü olan millətimiz yaşasın, hey! Qaba ağacınız qurumasın! Müasir işıq dirəkləriniz sönməsin!

Hərçənd bəzən bu avtobuslar sərnişin qarışıq dərəyə yuvarlanırlar. Bu zaman araşdırma başlanır, əşyayi-dəlillər, sərnişini-zəlillər tərəfimizdən aşkar olunub götürülür, məlum olur sürücü dabana tüpürüb qaçıbdır. Çünki sürücülük vəsiqəsi yox imiş. Nə biləsən, bəlkə o, erməni olmuşdur? Təxribat törətmək məqsədilə sükanı ələ keçirmişdir. Ar olsun! Hava yaman soyuqdur, ermənilər toyuqdur!

Sözgəlişi, bayaq amerikalı astronavtın ölməyini nahaq xatırlamadım. Məndə dəqiq məlumat var ki, Con Yanq Bakıda vəsiqəsiz sürücülərin adam daşıdığını eşidib heyrətindən ürəyi dayanıbdır. Rəhmətlik deyib ki, mən heç Aya uçanda pravasız uçmamışam, yoxsa NASA dədəmi yandırardı. Bu Yanq, ta söhbət açmışıq bunu da yazım, əsl bizim adam idi. Çünki dünya tarixində ilk dəfə kosmosa buterbrod aparmışdır. Deyilənə görə gizli şəkildə. Kosmonavt, ya da indi təzə sözümüzlə desək, astronavt yoldaşıyla Ayda oturub Yerə baxırmışlar, hərdən də kosmonavt yeməyi yeyirmişlər. Nəhayət, Con müəllimin ürəyi dözməyib, qoltuğundan vetçinalı buterbrodu çıxarıb dostuna verib, deyib al ye, bəsdir o "diş pastası"nı yedin. Hərdən yığışın bura, uzun qış gecələrində sizə belənçik maraqlı əhvalatlardan nəql eləyim. İqtisadiyyatı güclü olan köşə yazarı hər şeyə qadirdir.

Bu mənada indi millətin özünə əl qatıb itənləri axtarması bəlkə də yanlış hərəkətdir. Biri dağda itir, biri dənizdə. Başqası meşədə yoxa çıxır, ayrısı şəhərin içində. Neftçi, alpinist, şair, tələbə, jurnalist, siyasətçi... Yadıma gəlir, keçən ilin axırlarında bir sintezator çalan musiqiçi də itkin düşmüşdü. Hər kəs burada itməkdədir. Bəlkə bu adamlar elə özləri qeybə çəkilmək istəyirlər? Niyə biz onları axtarıb bezdiririk? Tapıb nə edəcəyik? O biri tapdıqlarımıza elədiklərimizdən: çərlədib öldürəcəyik. Ya da haqlarında cinayət işi qaldıracağıq. İtənləri axtarmaq həvəsi o qədər güclüdür ki, biz bunun verilişini də açmışıq. Halbuki, bizə daha çox yaraşardı adamları yox eləmək verilişi açaq. Prinsipcə bu reallıqda var. Ancaq veriliş şəklində maraqlı olardı. Təsəvvür elə, studiya qurursan, Mamed girir o başdan, oturur dairəvi studiyada, camaat çapan çalır, aparıcı ağlaşmalı mahnı verir, axırda da Mamed rəsmi şəkildə qeyb olur. Reytinqləri qıracağına and içirəm. Hər verilişdə beş-altı adamı yoxa çıxartsan bunun iqtisadi problemlərimizin həllinə də müsbət təsiri olar. Yoxsa hamısı ağzını açıb pensiya istəyir.

Müsbət şeylər çoxdur.



# Rus analitikdən "ABŞ Azərbaycanı qarışdırmağa çalışacaq" xəbərdarlığı

## Politoloq: "Cənubi Qafqaz, əsasən də Azərbaycan Qərb və ABŞ üçün xüsusi çəkiyə malik olan bir regiondur"

**Rusiyalı ekspert Aleksandr Fomenkov "CA-IrNews"a açıqlamasında bildirib ki, İrandakı iğtişaşlardan sonra növbə Rusiya və Azərbaycanındır. Bu barədə strateq.az yazıb ki, Fomenkov fikrini belə əsaslandırıb: "Şimal-Cənub" nəqliyyat dəhlizi Qərbi çox mühüm kapitallardan məhrum edə bilər. ABŞ buna yol verməmək üçün İranda kütləvi iğtişaşlar törətməyə cəhd edib.**

Bu il Azərbaycan və Rusiyada seçkilərdir. ABŞ bu ölkələri də qarışdırmağa çalışacaq. Üç dövlətin-Rusiya, Azərbaycan və İranın liderləri 2017-ci ilin axırında "Şimal-Cənub" əmtəə-nəqliyyat dəhlizini inşa etmək və işə salmaq razılığına gəlib. Bu cür dəhliz tədarükçü, alanlar və tranzitçilər üçün daha böyük mənfəətlə Hindistan, Pakistan, Çin və Asiya, Şərqi və Qərbi Avropanın bir çox başqa ölkələrini əlaqələndirəcək. Hindistandan Avropaya artıq bir neçə əsr işlək olan indiki dəniz yolu və İran, Azərbaycan və RF-nin bərpasına can atdığı əvvəlki quru İpək Yolu Qərbin "boğazındakı sümük" kimidir. Hindistandan Avropaya dəniz yolunda hansı kapitalların hərəkətləndiyini təsəvvür edə bilərsiniz? "Şimal-Cənub" layihəsinin gerçəkləşməsi Qərbin bir sıra ölkələrinə və indiki dəniz yoluna nəzarət edənlərə önəmli ziyan vura bilər. Köhnə və Yeni Dünyanın ilk xanədanlarının maddi rifahı bir çox baxımdan bu kapitallara söykənir.

Bu səbəb üzündən "Xanədanlar"ın sakinləri İran, Rusiya və Azərbaycanın düşündüyü, Avropa xalqları üçün aşkarca əlverişli və bu gün Avropa-Asiya dəniz yollarına nəzarət edənlərin maddi gücünü sarsıdan nəqliyyat dəhlizinin inşaatını həyata keçirməyə mane olmaq üçün bütün resurslarını işə salarlar. İranda dekabrın axırında baş verən hadisələr bunun təsdiqidir. Qərbin pul kisələrinin niyyətinin ciddiliyini özündə ilk hiss edən İran oldu. Növbə Rusiya və Azərbaycanındır. Bu il həm orada, həm də burada prezident seçkiləri baş tutacaq. Lakin mən zərrəcə şübhə etmirəm ki, Qərbin Moskva və Bakını laxlatmaq cəhdləri hədər çıxacaq, lakin "Sem dayı" və ortaqları qanımızı kifayət qədər içəcəklər".

Bəs ABŞ doğrudanmı bölgəni qarışdırmaqda maraqlıdır? Azərbaycanın qarışması Vaşinqtona lazımdırmı? Yoxsa, rus siyasi ekspert ölkəsindəki konyukturaya uyğun olaraq ABŞ-ın üzərinə o bu şəkildə yüklənir? Yox əgər onun dediklərində həqiqət payı varsa, Amerikanın seçkidə Rusiyanı və Azərbaycanı qarışdırmaq imkanları varmı?

**Politoloq Elşən Mustafayev** "Yeni Müsavat"a bildirdi ki, İranda olan hadisələrdən sonra digər ölkələrdə, o cümlədən Rusiyada iğtişaşların ola biləməsi ehtimalı ilə bağlı söylənilənlər hansısa bir sirrin açılması deyil. Keçən il eyni vaxtda Rusiyanın 20-yə yaxın şəhərində etiraz aksiyalarının keçirilməsi bu ehtimalların hər zaman həyata keçə biləcəyindən xəbər verir. Etirazlar əsasən korrupsiya hallarına, qanunsuzluqlara, avtoritarizmə qarşı olur. Necə ki , İranda və Rusiyada bu faktor öndə idi. Amma hər zaman olduğu kimi hakimiyyətlər özlərinə qarşı olan ittihamlara cavab verməkdə, insanları qane edəcək islahatlara getmək əvəzinə iğtişaşların xarici dövlətlər-xüsusilə ABŞ tərəfindən təşkil olunduğunu bəyan edirlər: "Bu ittihamları öz üzərlərindən yayındırmaq anlamına gəlir. ABŞ-ın İrana da Rusiyaya da münasibəti bəllidir və onu hər zaman açıq söyləyib. Hər iki dövlətə tətbiq olunan sanksiyalar da hər şeyi deyir. Bu münasibətlərin kökündə isə daha ciddi səbəblər durur. Bu səbəblərin içində Fomenkovun söylədiyi Şimal-Cənub nəqliyyat dəhlizi sazişinin olmasını hesab etmirəm. 2002-ci ildən qüvvəyə minən bu sazişə bir çox ölkələr, o cümlədən 2005-ci ildə Azərbaycan da qoşulub. Böyük mənada bunun Qərbə, ABŞ-a heç bir ziyanı yoxdur. Adından da göründüyü kimi, bu sırf nəqliyyat dəhlizidir və Hindistan, Oman, İran, Xəzər hövzəsi ölkələri, Rusiya Federasiyası, Baltikyanı dövlətlər, Avropa istiqamətində magistral nəqliyyat kommunikasiyalarının yaradılmasına hesablanıb. Bununla belə, ABŞ-n İranla, Rusiya ilə bağlı planları var. Bu ölkələrin daxilində baş verəcək etirazlara müxtəlif şəkildə dəstək verilə bilər. Söhbət ancaq dəstəkdən gedir. Baş verəcək hadisələri yaradan, həyata keçirdən güclər ölkələrin öz insanları olur. Ona görə də yaranacaq situasiyanın kökünü ölkələrin özündə, əsas da hakimiyyətlərdə axtarmaq lazımdır. Öz qüsurlarını başqasında axtarmaq isə çıxış yolu deyil, əksinə, problemi daha da inkişaf etdirməyə xidmət edən yoldur".

**Politoloq vurğuladı ki, ABŞ-n seçki ilində Azərbaycanı qarışdırmaq kimi niyyətinin olduğunu söyləmək üçün bu gün əsaslar yoxdur:** "Cənubi Qafqaz, əsasən də Azərbaycan Qərb və ABŞ üçün xüsusi çəkiyə malik olan bir regiondur. Ölkədən insan haqları, siyasi, iqtisadi, mülkiyyət azadlıqları ilə bağlı ciddi tələblər olsa da, bu günə qədər regionda sabitliyin olması Qərb və ABŞ əsas üçün prioritet kimi qəbul olunub. Bundan sonrası isə ölkə daxilindəki situasiyadan və bu situasiyaya hakimiyyətin necə yanaşması, onu necə dəyərləndirməsindən asılı ola bilər".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

# Rus tarixçi erməni terrorundan film hazırlayır

**Ermənistanın Rusiyada terrorizm ideologiyasını necə müdafiə etməsi ilə bağlı xeyli sayda sənədlər var. Bu faktlarla sənədli film çəkmək olar. Filmin ssenarisi artıq hazırdır, hətta müəyyən kadrlar da çəkilib. Düşünürəm ki, yanvarın sonu - fevralın əvvəllərində filmi yekunlaşdıra biləcəyəm.**



Oleq Kuznetsov

Bunu AzərTAc-a müsahibəsində **tanınmış tarixçi, qafqazşünas alim Oleq Kuznetsov** deyib. Tarixçi qeyd edib ki, dünyada mövcud olan müxtəlif terror qruplaşmaları ilə müqayisədə erməni terrorizmi özündə daha çox təhdid və hədələri birləşdirir: "Biz Azərbaycana qarşı törədilənlərin nümunəsində bunun çox şahidi olmuşuq. Bu mövzunu dərindən öyrənəndə məlum olur ki, hazırda erməni ekstremizmi hətta Rusiya dövlətçiliyini də təhdid altına alır. Tarixə nəzər salsaq görərik ki, vaxtilə erməni terrorçuları Rusiyanın özündə bir sıra terror hadisələri törədiblər. Buna çoxsaylı misallar gətirmək olar. Erməni terrorizmi, erməni ekstremizmi haqqında faktları araşdıranda məlum oldu ki, bu ideologiya indi də davam etdirilir".

**Oleq Kuznetsov erməni terrorizminin tarixi haqqında yazdığı kitabının 2015-ci ildə Bakıda, 2016-cı ildə isə Moskvada nəşr olunduğunu bildirib. Eyni zamanda 2015-ci ildə Stokholmda, 2016-cı ildə isə ingilis dilində Berlində böyük tirajla nəşr edilib.**

Qafqazşünas alim deyib: "Mənim kitablarımı dünyanın müxtəlif ölkələrində oxuyurlar. Erməni terrorizmi ilə bağlı kitabım çap olunandan sonra müxtəlif ölkələrdən elektron poçtuma bununla bağlı xeyli materiallar gəlməyə başladı. Məsələn, Türkiyənin Ankara, İstanbul hava limanlarında, Fransanın Orli hava limanında, həmçinin təxminən son 7 ildə baş vermiş teraktlarla bağlı kifayət qədər məlumatlar aldım. Eyni zamanda Belarusdan çoxsaylı materiallar göndərildi. Hamısı da kifayət qədər əhatəli materiallar və faktlardır. Onları yenidən işləmək, dəqiqləşdirmək xeyli vaxt aparacaq. Bu ilin ortalarından bu işlə məşğul olmağa başlayacam".

# Prezident seçkisinə kim, necə hazırlaşır?

## Əksər partiyalar qərara gələ bilmir, namizədini elan edənlər isə...

**Artıq prezident seçkisi ilinin ilk 10 günü arxada qaldı. Seçkiyə təxminən 9 ay qalıb. Lakin hələ ki ölkədə seçki ab-havası hiss olunmur. Hakim Yeni Azərbaycan Partiyası daxil olmaqla, partiyaların əksəriyyəti prezidentliyə namizədlərini hələ elan etməyiblər. Prezidentliyə namizədini cəmi bir neçə partiya irəli sürüb və ya elan edib. Bunlar Müsavat Partiyası (namizədi İsa Qəmbər), VİP (namizədi Əli Əliyev) və AG Partiyadır (Tural Abbaslı). Bəs siyasi partiyalarda seçki hazırlıqları gedirmi? Bu günə kimi hansı addımlar atılıb, yaxın dövr üçün hazırlıq planlarında nələr var?**

İsa Qəmbərin sədrlik etdiyi Milli Strateji Düşüncə Mərkəzinin üzvü **İsgəndər Həmidov** bildirdi ki, seçki hazırlıqları istiqamətində bir sıra addımlar atılıb, digər siyasi qüvvələrlə müəyyən ilkin müzakirələr aparılıb və bu proses yaxın dövrlərdə davam etdiriləcək.

**VİP sədri Əli Əliyev** isə bildirdi ki, o, növbədənkənar seçkinin olacağı ehtimalının qaldığını hələ də düşünür. Lakin hesab edir ki, seçki zamanında-oktyabrda keçirilsə belə, qalan zaman o qədər də çox deyil: "Hələlik situasiya hakimiyyət alternativlərinin xeyrinə deyil. Müxalifətin pərakəndə olması, beynəlxalq aləmin "dişsizliyi", iqtidar komandasının zahiri də olsa bütövlüyü hakimiyyət alternativlərinin xeyrinə olmayan amillərdir. Bu halda gərgin beynəlxalq situasiya və artan iqtisadi sosial böhran müttəfiqimiz sayılmalıdır. Düzgün atacağımız addımlar xeyrə olan faktorları gücləndirə, hətta həlledici hala yüksəldə bilər. Biz VİP olaraq müxalifətdaxili inteqrasiyanı zəruri saymaqla yanaşı, partiya işlərimizi də mütəmadi icra edirik. Düşünürəm ki, inteqrasiya baş tutmasa, məhəlli uğurları gözə almalıyıq. Ya böyük, həlledici, ya da kiçik məhəlli qələbələr üçün mübarizəyə hazırlaşmalıyıq".

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, seçkilərə qalan vaxt azaldıqca AĞ Partiya olaraq öz işlərini intensivləşdirməyə çalışırlar:** "Ancaq unutmaq lazım deyil ki, bu gün Azərbaycanda normal seçki mühiti yoxdur. Biz də partiya olaraq bu reallıqlarla hesablaşmağa məcburuq. Bu seçkilərə çoxlu sayda siyasi məhbus olan, siyasi partiyaların fəaliyyət göstərmək şəraiti olmayan, azad mətbuatın boğulduğu bir dönəmdə gedirik. Bu sadaladığım hallar da partiyanın fəaliyyətinə, seçki hazırlıqlarına birbaşa mənfi təsir göstərir. Ancaq biz hələ keçən ildən partiyanın seçki ilə bağlı fəaliyyət planını qəbul etmişik. Elə o zamandan da bu istiqamətdə fəaliyyət göstəririk. Bu gün gördüyümüz əsas iş ilk növbədə imza toplama mərhələsinə hazırlıqdır. Belə ki, 40 mindən artıq imzanı toplamağın təşkili işi çox ağır və məsuliyyətli bir işdir. Buraya imzaların toplanma şərtləri nəzərə alınaraq bölgələr üzrə imza toplayanların siyahılarının hazırlanması, onların maarifləndirilməsi və s. daxildir. Həmçinin sonrakı mərhələlərə də hazırlıq davam edir. Buraya namizədin təbliğat-təşviqat işinin təşkili daxildir ki, cəmiyyətə veriləcək mesajlar, şüarlar, vədlər və s. aiddir. Həmçinin seçkinin müşahidəsinin təşkili, seçki komissiyalarının işinə



nəzarət işinin təşkili üçün də addımlar atırıq. Ən önəmli işlərdən biri də mətbuatla işin təşkilidir. Bu işdə də xüsusi planlı addımlar atılması nəzərdə tutulur. Ümumiyyətlə, demək istərdim ki, bu iş çox geniş və miqyaslı bir işdir, biz də AĞ Partiya olaraq çalışırıq ki, iştirak edəcəyimiz ilk seçkidə layiqincə təmsil olunaq və müsbət nəticələr əldə edək. Əminəm ki, bu seçkilər Azərbaycanda yeni siyasi dönəmin başlanğıcı olacaq. AĞ Partiya olaraq biz bu yeni siyasi mərhələdə söz sahibi bir siyasi qurum olmağa çalışacağıq və inşallah, buna da nail olacağıq".

**KXCP sədrinin müavini Xəzər Teyyublu isə bildirdi ki, prezident seçkilərində iştirak üçün ictimai-siyasi vəziyyət dəyərləndirilməli, ölkədə azad seçki mühitinin olmaması geniş təhlil edilməli, sonra məsələ partiyanın həm yerlərdəki şöbələri, həm də mərkəzi strukturları tərəfindən müzakirə olunaraq qərarlaşmalıdır:** "Yəqin ki, yaxın vaxtlara müvafiq mövqe bəlli olacaq. Ancaq seçki hazırlıqları daim gündəmimizdədir. Regionda və ölkədə siyasi proseslərin dinamikliyi artmaqda davam edə bilər. Partiyanın bu ayın, yəni yanvarın 28-də keçiriləcək Ali Məclisində ictimai-siyasi vəziyyətin müzakirəsi zamanı seçki məsələsinə münasibət bildirilməsi istisna olunmur. Yaxşı olar ki, demokratik qüvvələrin birliyə yönəlik addımları atılsın. Hazırda siyasi durğunluğu demokratik qüvvələrin böyük birliyi ilə aradan qaldırmaq olar".

**VHP Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli bildirdi ki, siyasi partiyaların işi seçkilərdə iştirak etməkdir. VHP də öz müvafiq qurumlarında bunu müzakirə edəcək:** "Bu gün üçün seçki ilə bağlı partiyada qəti qərar yoxdur. VHP sədri Sabir Rüstməxanlı da seçki ilə bağlı tam olaraq mövqeyini bildirməyib. Partiyanın Ali Məclisinin toplantısında məsələ müzakirə ediləcək. Seçkiyə qədər partiyanın qurultayı nəzərdə tutulub. Qurultay seçkidə iştirak edib-etməmək, edəcəksə təkbaşına, yoxsa digər partiyalarla bir yerdə iştirak edib-etməmək barədə qərar verəcək. Bizim partiyanın seçki komissiyası və seçki departamenti var. Bütün seçkilərlə bağlı partiyanın hazırlığı hər zaman gedir. Bu strukturlar məhz bunun üçündür. Partiya qərar verəcəyi halda seçki departamentimiz də öz üzərinə düşən işi yerinə yetirəcək".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Dövlət bəyin dövlətçi gedişi - Baxçalının Ərdoğana açıq dəstəyinin sirri

## MHP sədrinin seçkilərə il yarım qalmış prezidenti açıq müdafiə etməsində əsas hədəf

**Son iki gündür Türkiyə mətbuatı və sosial şəbəkələr Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalının prezident Rəcəb Tayyib Ərdoğanla bağlı son açıqlamasını müzakirə edir. Söhbət Ərdoğanın prezident seçkilərində dəstəklənməsi ilə bağlı bəyanatından gedir. Baxçalı deyib ki, 2019-cu ildə keçiriləcək prezident seçkilərində özü namizəd olmayacaq və Ərdoğanın namizədliyini dəstəkləyəcək.**

Partiya sədri media təmsilçiləri ilə söhbətində onu da deyib ki, MHP AKP ilə birlikdə başladılan prosesi, yəni konstitusiyanın dəyişməsi ilə yeni sistemə keçid prosesini davam etdirəcək. O, bunu 2016-cı il avqustun 7-də baş tutan İstanbul "Yenikapı" mitinqi ilə bağlayan "Yenikapı" prosesinin davamı adlandırıb. Əlavə edib ki, MHP bu prosesə sadiqdir.

Türkiyə prezidentinin Baxçalının açıqlamasına cavabı da gecikməyib. Ötən gün partiya heyəti qarşısında çıxış edən Ərdoğan MHP başqanının açıqlamasını "yerli və milli duruş" adlandırıb. Ərdoğan da bildirib ki, onlar da 7 avqust ruhunu yaşatmaqda qərarlıdır.

Ancaq təbii ki, Baxçalının bu açıqlaması birmənalı qarşılanmayıb. Xüsusən də müxalif camiədə ciddi tənqidlərə səbəb olub. Təbii ki, əksəriyyət onu bu qərarına görə tənqid edir. Hətta xəyanətdə ittiham



edənlər var. Ölkənin əsas müxalifət partiyalarından birinin, parlamentdə fraksiyaya sahib olan MHP-nin seçkilərə il yarım qalmış Ərdoğanın namizədliyini müdafiə etməsi haqlı olaraq narazılıqla qarşılanıb.

Doğrudanmı, Türkiyənin ən təcrübəli siyasətçilərindən biri, uzun illər MHP-yə rəhbərlik edən Dövlət Baxçalı elementar siyasi praktikadan imtina edərək iqtidar namizədinə dəstək verməsinin kariyerası və partiyası üçün zərərli olduğunu bilmir?

Əlbəttə, sualın cavabı aydındır. O zaman illərin təcrübəli siyasətçisi nədən buna gedir? Özünü, partiyasının gələcəyini riskə ataraq 16 illik AKP iqtidarına açıq dəstək verir?

Bu sualın bir cavabı var: dövlət maraqları. Dövlət Baxçalı məhz indiki siyasi şərtlərə əsasən bu addımı atır. Dövlət Baxçalı dövlətçilik maraqlarından çıxış edən təcrübəli siyasətçidir. Türkiyədə 15 iyul qiyamından sonra onun Ərdoğanın müttəfiqi kimi çıxış etməsi Türkiyə prezidentinin hakimiyyətdəki FETÖ nümayəndələrini təmizləməsi ilə bağlıdır. Baxçalı və onun kimi düşünən bir çox siyasətçilər və dövlət adamları **(yeri gəlmişkən, belə düşünənlərin sayı az deyil - K.R.)** hesab edir ki, FETÖ və digər təriqət-camaat qruplarını hakimiyyət içərisindən təmizləyəcək yegane lider məhz Ərdoğandır. Çünki Ərdoğan bu prosesin əsas fiquru olub və indi Türkiyə prezidenti hər nə qədər tənqidlərə səbəb olsa da, təriqət qruplarını dövlət aparatından təmizləmək istəyən və bunu edə biləcək yeganə liderdir.

MHP sədri düşünür ki, əgər 2019-cu ildə başqa bir şəxs Türkiyənin prezidenti seçilərsə, FETÖ məsələsi ən yaxşı halda gündəmdən çıxa bilər və nəticə etibarı ilə Türkiyə dövləti daxilindəki gizli camaat şəbəkəsi mövcudluğunu qoruyub saxlayacaq. Hətta yenidən bərpa olub güclənə bilər. Bu da şərtlərə bağlıdır. Bu səbəbdən indiki situasiyada FETÖ və bənzər qrupların təmizlənməsi üçün Baxçalı və onun şəxsində Türkiyənin "dərin siyasətinin" yeganə variantı Ərdoğandır.

Bundan başqa, Ərdoğan-Baxçalı yaxınlaşması dövlət aparatına və xüsusən də hüquq-mühafizə və təhlükəsizlik orqanlarında milliyyətçi camiədən çıxan kadrların yerləşdirilməsi baş verir ki, bu da bir tərəfdən dövlət daxilində camaatların və islamçı ağırlığın azaldılmasına xidmət edir. Baxçalı özü də dəfələrlə bunu açıq şəkildə söyləyib və əsas məqsədinin dövlət maraqlarını qorumaq, gizli camaat qruplarını təmizləmək və xarici təsirin azaldılması olduğunu bildirib.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

# Bakıda iki gəncin mübhəm intiharı

## Özünü dənizə atan Məlik Cahangirov dekabrın 22-də təhsil aldığı universitetdən qovulubmuş; Rəşad Mustafazadə haqda isə elə iddialar var ki…

**Yanvarın 8-də Bakıda iki gəncin intihar etməsi xəbəri növbəti dəfə cəmiyyətdə şok effekti yaşadıb. Hər ikisi təxminən 22-23 yaşlarında olan gənclərin biri özünü metroda qatarın altına, digəri isə dənizə ataraq intihar edib. Bu iki gəncin intihar səbəbi sirr olaraq qaldığı kimi, dənizdə intihar edən gəncin meyiti də tapılmayıb.**




Məlik Cahan
21 Dekabr 2017, 15:23 · Facebook Lite

İlahi,kömək ol mənə
qorxularımı aşmağa.
Mən yenə çıxıb gedirəm
dünən gördüyüm kabusu
axan suya danışmağa.

İçimdə yetim böyüyən
balaca uşaq ağlıyır,
- dizlərini qucaqlıyır..
Dərdlərim yenə diriyib
ayaqların bir başmağa

Olan olub,keçən keçib,
daha mən də düzəlmişəm.
Qayıdıb geri gəlmişəm
taleyimlə barışmağa.

Uşaqların gözlərində
Dünya hələ tər-təmizdi.
Mən daha uşaq deyiləm,
mənim yolum bu dənizdi
Allahıma qovuşmağa...

Məlik Cahan







Məlik Cahan
21 Dekabr 2017, 15:23 · Facebook Lite

İlahi,kömək ol mənə
qorxularımı aşmağa.
Mən yenə çıxıb gedirəm
dünən gördüyüm kabusu
axan suya danışmağa.

İçimdə yetim böyüyən
balaca uşaq ağlıyır,
- dizlərini qucaqlıyır..
Dərdlərim yenə diriyib
ayaqların bir başmağa

Olan olub,keçən keçib,
daha mən də düzəlmişəm.
Qayıdıb geri gəlmişəm
taleyimlə barışmağa.

Uşaqların gözlərində
Dünya hələ tər-təmizdi.
Mən daha uşaq deyiləm,
mənim yolum bu dənizdi
Allahıma qovuşmağa...

Məlik Cahan







Yanvarın 8-də axşam saatlarında metronun “Ulduz” stansiyasında intihar edən Gəncə şəhər sakini, 1995-ci il təvəllüdlü Mustafazadə Rəşad Əlixan oğludur.

İntihar səbəbi dəqiq bilinməyən gənc sosial aktivliyi ilə seçilib. Bir neçə xarici dil bilən Rəşad “Glamour Center MMC” tur şirkətinin direktoru olub və rayonlara turlar təşkil edirmiş. Sosial şəbəkədə sonuncu dəfə bir neçə gün öncə Qəbələyə təşkil etdiyi turun şəkillərini paylaşıb. Facebook fəaliyyətini araşdırdıqda gəncin daim pozitiv paylaşımlar etdiyinin şahidi olduq. Eyni zamanda müğənni olan gənc dövlət tədbirlərində, toylarda da mahnı ifadə edirmi.

Bəs görəsən, özünün özəl tur şirkəti olan, həyat dolu olan bir gənc nədən intihar edib? Həm də Gəncə şəhər sakini olduğu halda, bunu niyə məhz Bakıda metronun “Ulduz” stansiyasında həyata keçirib?

“Yeni Müsavat”ın müxbiri bu suallara cavab tapmağa çalışıb və mərhumun Gəncədə yaşayan dostları ilə əlaqə saxlayıb.

**Mərhumun adının çəkilməsini istəməyən dostu əvvəlcə onun şəxsiyyətini xarakterizə edərək, haqqında çox müsbət fikirlər səsləndirib:** “Onu çox pozitiv, həyat eşqli, gülərüz, səmimi, çox kişilərdən fərqli olaraq sözünün üstündə duran bir gənc kimi tanıyırdım. Bir böyük kimi mənə qarşı hər zaman saygılı idi. Bundan başqa, yaşının az olmasına rəğmən çox güclü təşkilatçılıq qabiliyyəti var idi. Özünün tur şirkəti var idi, bu günlərdə Gəncədə ofisi açıldı”.

**İntihar səbəbinə gəlincə, mərhumun dostu bildirdi ki, bu onun cinsi azlıqlara xas davranış tərzi ilə əlaqədar ola bilər:** “Mən onun bir həmcinsinə qarşı fərqli münasibətini görmədiyim üçün cinsi azlıq olduğunu deyə bilmərəm. Ancaq davranışında , hərəkətlərində onlara xas əlamətlər var idi. Bu da Gəncə kimi bir şəhərdə onu çox sıxırdı. İctimai qınaq çox güclü idi. Burada mühit elədir ki, yaxın vaxtlarda saçını uzadan bir oğlanı tutub döymüş, ölümcül hala salmışdılar. O ki qaldı cinsi azlıqlara qarşı...”

**Rəşad Mustafazadənin adının çəkilməsini istəməyən digər bir xanım dostu isə təsdiqlədi ki, mərhum cinsi azlıq olub və intiharına da elə bu səbəb ola bilər:** “Hədsiz dərəcədə yaxşı uşaq idi, həyatsevər biri idi. Nə vaxtsa intihar edəcəyi heç vaxt ağlıma gəlməzdi. ”Glamour Center MMC" tur şirkəti üçün yeni ofis açmışdı, ancaq heç ofisin bir ayı tamam olmadan bu addımı atdı. İki ay öncə onun cinsi azlıqlardan olan başqa bir dostu intihar etmişdi. Həmişə onu qınayırdı ki, düz etmədi. Ancaq indi özünün intihar etməsi bizi şoka saldı. Ancaq bildirdik ki, Gəncədə ictimai qınaq, **təzyiqlər onu çox sıxırdı".**

**Həmsöhbətim onu da qeyd etdi ki, Rəşad Mustafazadəyə ailəsi heç zaman dəstək olmayıb:** “Onların ailəsində birlik yox idi, hərə ayrı yaşayırdı. İki bacısı, bir qardaşı var idi. Atası Rusiyada yaşayırdı, ona heç vaxt arxa çıxmamışdı, bir övlad kimi baxmırdı. Həmişə atasından şikayətlənirdi. Rəşada ailədən heç kim dəstək çıxmadı. Ancaq maddi olaraq onlara ehtiyacı yox idi, işləyib özünü dolandırırdı”.

Qeyd edək ki, Rəşad Mustafazadənin sosial şəbəkədəki son statusları belə pozitiv olub. O, Qəbələyə təşkil etdiyi tutun elanını paylaşıb. Növbəti paylaşımında “Glamour Center MMC”nin dünyanın müxtəlif ölkələrinə aviareyslərin bilet satışını həyata keçirdiyini qeyd edib. Həmçinin direktoru olduğu şirkət vasitəsilə ehtiyaclı ailələr üçün yardımtoplama kampaniyası da həyata keçirirmiş.

**Sonuncu statusu isə dekabrın 28-də yazıb: “Hə, yaltaqlar da var. Onları da unutmayaq. Xüsusən 16-30 yaşlı 72%-lər. Kənardan çox gülməli görünürsüz. Çox sağ olun ki, güldürürsüz!”**

Dəqiq intihar səbəbi rəsmi olaraq açıqlanmasa da, dostlarının sözlərindən belə nəticə çıxara bilərik ki, 22 yaşlı gəncin ölümünə məhz qeyri-ənənəvi cinsi oriyentasiyası səbəbindən üzləşdiyi təzyiqlər olub.

****

Yanvarın 8-də özünü dənizə ataraq intihar edən Məlik Cahangirovun intihar addımı isə daha dəhşətli olub. O, sosial şəbəkədə status yazaraq intihar edəcəyi saata qədər üstüörtülü şəkildə anons verib. “Son 52 saat”, “son saat 1 dəqiqə” yazaraq intihar vaxtını bildirib. Sonra həmin saatda dənizdə şəklini çəkərək facebookda paylaşıb və harada olduğunu qeyd edib. Sanki bununla kiminsə gələrək onu xilas etməsini gözləyib. Məlik Cahan təxəllüsü ilə şeirlər yazan gənc son şeirlərində son yolçuluğunun dənizə olduğunu da göstərib. Lakin bütün bunlar yaxınlarına bir həyəcan siqnalı üçün kifayət etməyib.

Məlumat üçün bildirək ki, hadisə “Yaxt Klub”a yaxın ərazidə qeydə alınıb və Məlik Cahangirovun saat 16:45 radələrində özünü dənizə atıb. Lerik rayon sakini olan və ailəsi Lerikdə yaşayan 1995-ci il təvəllüdlü gənc Azərbaycan Dövlət Pedaqoji Universitetinin coğrafiya fakültəsinin 4-cü kursunda təhsil alırmış.

**Məlik Cahangirovun özünə nə üçün qəsd etməsi ilə bağlı mətbuatda bir neçə iddialar yayıldı. Onlardan biri bu idi ki, gənc təhsil haqqını vaxtında ödəmədiyi üçün oxuduğu universitetdən qovulmaq təhlükəsi ilə üzləşibmiş. Bu sözləri teleqraf.com-a açıqlamasında bulvarda özünü dənizə ataraq intihar etmiş Məlik Cahangirovun bibisi oğlu Xəyal Kərimov deyib.**

**Onun sözlərinə görə, Məlik valideynlərinin təhsil haqqı üçün ona verdiyi 600 manatı xərcləyib:** “Bu səbəbdən təhsil haqqını ödəyə bilməyib. İlkin versiya kimi intihara bu səbəb ola bilər. Pulun nəyə xərcləndiyi bəlli deyil”.

Bu məlumatı dəqiqləşdirmək üçün “Yeni Müsavat” olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin mətbuat xidməti ilə əlaqə saxladıq.

**Universitetin mətbuat xidmət rəhbəri Mənsur İbrahimli bildirdi ki, intihar etmiş 23 yaşlı Məlik Nizaməddin oğlu Cahangirov hazırda ADPU-nun tələbəsi deyil:** “Mediada Məlik Cahangirovun Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tələbəsi olduğu qeyd edilir. Bununla əlaqədar olaraq bildiririk ki, 1995-ci il təvəllüdlü Məlik Cahangirov 2013-2014-cü tədris ilində ADPU-nun Tarix və coğrafiya fakültəsinin ”Coğrafiya müəllimliyi" ixtisasına qəbul edilib. 2016-2017-ci tədris ilində IV tədris ilinin 401-ci qrupunun tələbəsi olub. 2 fəndən akademik borcu olduğuna və son semestrdə dərslərə gəlmədiyinə görə 22 dekabr 2017-ci il tarixli 2/227 saylı əmrlə ADPU tələbələri sırasından xaric edilib. Qeyd etməyi məqsədəuyğun sayırıq ki, Məlik Cahangirovun ötən ilin sentyabr ayından bu yana ADPU ilə heç bir əlaqəsi olmayıb. Biz bu faciəli hadisədən dərin kədər hissi keçirdiyimizi bildirir, mərhumun ailəsinə və yaxınlarına Allahdan səbir diləyirik. Allah rəhmət etsin".

İntihar səbəbinin nə olduğunu və gəncin son zamanlar nə üçün intihara meylli statuslar yazdığını öyrənmək üçün onun dostları ilə əlaqə saxladıq.

**Məlik Cahangirovla bir komandada intellektual yarışlara qatılan və yaxın dostu olan Günay Vəliyeva “Yeni Müsavat”a danışarkən bildirdi ki, mərhumu 4 ildir ki, tanıyır:** “Hər həftə birgə intellektual yarışlara gedirdik, komanda yoldaşım idi. Birlikdə AİOK-un, NHN-in yarışlarına qatılardıq, 4 ildir hər şənbə və bazar günlərimiz orada keçərdi. "Xəmsə" intellektual yarışına da qatılmışdıq. Çox mehriban, dostlarına qarşı diqqətcil bir insan idi. Yeri gələndə şad olurdu, mühitə uyğunlaşırdı. Ancaq son 7-8 aydır ki, özünə qapanmışdı, pessismistləşmişdi və facebook statuslarında bunu bildirirdi. Onun bu cür status yazmasına öyrəşmişdik və ona görə son statusunu da onlardan biri zənn etdik, adi qarşıladıq. Çox peşmanam ki, intiharına 52 saat qaldığını bildirən statusa görə ona zəng etmədim. İnanmıram ki, intihar səbəbi universitetin ödənişi olsun. Çünki bizim universitetdə ödənişə görə tələbəni tələsdirmirlər, tələbələr də belə hallarda dostlarına kömək edirlər. O, universiteti keçən il bitirməli idi, ancaq kəsiri var idi və bu yaxınlarda imtahanı olacaqdı. Səbəb bu deyil. Ancaq yaxın dost olsaq da dərdini danışmazdı, qapalı idi. Deyərdi ki, öz problemlərimlə başqalarını üzməyi sevmirəm. Hər şey yaxşıdır, düzələcək deyirdi. Ailəsi, maddi durumu haqqında danışmağı sevmədiyi üçün bu haqda məlumatım yoxdur. Ancaq çox da imkanlı deyildi. Çox savadlı, intellektual idi, şair idi, şeirlər yazırdı. Ən böyük arzusu şeirlər kitabını çıxartmaq idi. Son paylaşımlarında hər şeyi qeyd edib. Çox peşmanam ki, diqqət etmədik. VhatsApp statusunda da yazıb ki, “əcəlinə tərk edilmiş qoca kimi köməksizəm”. Son vaxtlar o qədər pessimist idi ki, intihar edəcəyinin fərqinə vara bilmədik".

**Günay Vəliyevanın sözlərinə görə, Məlik daha öncə də intihara cəhd edib:** “Dekabrın 31-də də nə isə bir hadisə olmuşdu. Dostları sosial şəbəkədə yazdılar ki, belə etmə və sair. Onu intihar fikrindən yayındırdılar. Sonra Məlik də yazdı ki, yaxşıyam, narahat olmayın. 31 dekabrdan 1 həftə əvvəl də status yazmışdı ki, ”1 həftə sonra öləcəyinizi bilsəniz nə edərdiniz?" Başqa belə bir məqam olmayıb. Ancaq görünür, hər şeyi öncədən planlayırmış".

Həmsöhbətim sonda onu da bildirdi ki, özünəqapalı və dərdini paylaşmayan bir insan olduğundan dostlarından heç biri Məlik Cahanın hansı səbəbdən intihar etdiyini bilmir.

Qeyd edək ki, Məlik Cahangirovun meyiti hələ tapılmayıb. Bu mənada yaxınları onun sağ qalacağına olan ümidlərini üzmürlər. Bu barədə dənizdən çıxarılan meyitin isə intihar etdiyi deyilən Məlik Cahangirovun olmadığı bildirilir. Banu teleqraf.com-a açıqlamasında Məlikin bibisi oğlu Xəyal Kərimov deyib. Onun sözlərinə görə, axtarışlar hələ də davam edir: “Məlikin ailə üzvləri, qohumları da burdadırlar. Hələ də ümidimiz var ki, intihar etməyib, sağdır, özünü dənizə atsa da, başqa yerdən sağ-salamat çıxıb, harasa gedib. Gözləyirik”.

Mərhumun sosial şəbəkədəki səhifəsində də onun sağ ola biləcəyi ilə bağlı müzakirələr gedir. Dostları onun facebook profilinin və WhatsApp hesabının yanvarın 9-da, günorta saatlarında bir neçə dəqiqə aktiv olduğunu yazıblar. Telefonuna zəng çatdığını qeyd edənlər də olub.

Ola bilər ki, mərhum intihar edərkən gödəkçəsini çıxarıb sahildə qoyduğundan telefonu da polis tərəfindən götürülüb və araşdırılır. Şəxsi hesablarında da məhz bu səbəbdən aktiv olduğu görünür.

Hər halda, ölümün təsdiqlənməsi üçün Məlik Cahanın yaxınları rəsmi qurumlar tərəfindən mərhumun meyitinin tapılması ilə bağlı verilən xəbəri gözləyir.

❑ Nərgiz LİFTİYEVA,
❑ “Yeni Müsavat”

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Bakının düşmənə Yeni il "təbriki" - "Sonuncu işğalçı da çıxmayınca..."

## İl başlar-başlamaz, cəbhə xəttində işğalçı ölkə növbəti canlı itkilərini verdi; Azərbaycan bu il hərbi və döyüş hazırlıqlarını daha da gücləndirəcək; **erməni şərhçi:** "Bakı Ermənistana qarşı üzücü müharibə taktikası tətbiq edir..."

**İşğalçı Ermənistan təzə ili təzə canlı itki ilə qarşıladı: bir əsgər öldürüldü. Başqa bir məlumata görə, Qarabağda işğalçı ordunun daha iki hərbçisi minaya düşüb. Erməni qaynaqları bildirir ki, onların hər ikisinin ayaqları amputasiya edilib.**




Bu, əslində Azərbaycanın düşmənə aydın bir anonsudur ki, İrəvan işğal altındakı ərazilərimizdən rədd olub getmək haqda ciddi düşünməyincə, Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutmayınca onun itkiləri bitməyəcək. Erməni ailələri əsgər tabutları almaqda davam edəcək.

Bu xüsusda erməni siyasi şərhçi Sarkis Arsruninin dünənki şərh yazısı diqqət çəkir. "Yeni Müsavat" 1 in.am saytına istinadla xəbər verir ki, cəbhədəki işğalçı erməni əsgərinin qətlə yetirilməsi ilə bağlı müəllif yazıb: "Hələ ki böyük müharibəyə izn ala bilməyən Azərbaycan Ermənistana qarşı üzücü müharibə taktikası tətbiq edir. Bu da Ermənistan cəmiyyətində ümidsizlik və panik ovqat yaratmaq niyyəti güdür. Yeni ildə də Azərbaycan bu siyasətə sadiq qalmaqda davam edəcək. Ermənistan buna qarşı hələ ki resept tapa bilməyib".

**Erməni şərhçi daha sonra qeyd edir ki, həlak olan erməni əsgərləri haqda vaxtaşırı ön cəbhədən gələn xəbərlər erməni cəmiyyətinə müharibənin özündən də pis təsir edir.** "2018-ci ildə Ermənistanda və Azərbaycanda hakimiyyətin transformasiyası baş verəcək. Bu üzdən də müharibənin qızışması az ehtimallıdır. Ancaq son insident göstərdi ki, Azərbaycan çağırışlara rəğmən, öz taktikasını davam etdirəcək. Ermənistan diplomatiyası qeyri-standart qərarlar axtarmaq imperativi qarşısındadır", - deyə o əlavə edib.

Erməni müəllifin yuxarıdakı fikri ibrətamiz olmaqla yanaşı, həm də acı bir etiraf, Ermənistanın Qarabağ diplomatiyasının uğursuzluğunun təsdiqidir. Çünki işğalçı tərəf keçən il dərindən-qabıqdan çıxdı ki, təmas xəttində atəşkəsin pozulma insidentləri ilə bağlı yeni monitorinq mexanizminin tətbiqinə nail olsun və bu yolla cəzasız şəkildə, heç bir itki vermədən işğal rejimini davam etdirsin. Eyni zamanda faktiki cəbhə xəttini rəsmi təmas xəttinə çevirməklə işğala dolayısıyla haqq qazandırsın. İrəvanın bir hədəfi də bununla Azərbaycanın öz qanuni ərazilərini silah gücünə azad eləmək haqqını və şansını əlindən almaq, danışıqlarda radikal mövqeyi saxlamaq idi.

Ancaq rəsmi Bakının prinsipial mövqeyi və etirazı üzündən o, avantürist məqsədinə çatmadı. Əksinə, ötən il genişmiqyaslı müharibə olmasa da, düşmən atəşkəs dövründə daha çox itki verdi. Serj Sərkisyan ön şərtlərdən vaz keçərək, sülh danışıqlarına qatılmaq zorunda qaldı. Ermənilər anlamalıdılar ki, işğal davam etdikcə belə də olacaq, hətta bu il o birindən də ağır gələcək. İşğalçı qüvvələr Azərbaycan torpaqlarında heç vaxt özlərini rahat, güvəndə hiss etməyəcək.

Bu, mümkün də deyil. Fürsət düşən kimi isə düşmənin qorxulu röyası olan "Aprel sindromu" təkrarlanacaq. Bunu təsdiqləyən amillərdən biri də Azərbaycanın öz hərbi və döyüş qabiliyyətini durmadan artırmasıdır. Bu il də Bakının bu sahəyə diqqəti artıracağı şübhə doğurmur. Xüsusən də qardaş Türkiyə, Pakistan, İsraillə, digər ölkələrlə hərbi və hərbi-texniki əməkdaşlığın daha da dərinləşəcəyi gözlənilir. Söhbət həm də ortaq hərbi müəssisələrin və birgə təlimlərin keçirilməsindən gedir.

*****

Yeri gəlmişkən, bu arada Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində hərbi hissələrin şəxsi heyətlə iş üzrə zabitləri və psixoloqlarla keçirilən təlim-metodiki toplantıya cəlb olunan heyətlə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumatda bildirilir ki, birlik, birləşmə, qoşun qisimləri və xüsusi təyinatlı təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə çıxış edən müdafiə naziri 2017-ci ildə döyüş və mənəvi-psixoloji hazırlıq sahəsində görülən fəaliyyətlərin təhlilini aparıb və Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğını xüsusi vurğulayıb.

Daha sonra cari tədris dövründə bu istiqamətdə müəyyən edilmiş prioritetlər barədə danışan müdafiə naziri hərbi qulluqçuların milli-mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi kollektivlərdə sağlam rəqabət atmosferinin inkişaf etdirilməsi, əsgər və zabitlərin şəxsi xüsusiyyətləri nəzərə alınmaqla fərdi tərbiyə işinin planlı şəkildə həyata keçirilməsi və bir çox məsələlərlə bağlı fikirlərini toplantı iştirakçılarının diqqətinə çatdırıb. Z.Həsənov həmçinin qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə hər an hazır vəziyyətdə olmasını təmin etmək məqsədilə mənəvi-psixoloji hazırlıq işinin daim gücləndirilməsi ilə bağlı konkret tapşırıqlar verib.

*****

Azərbaycan paralel surətdə Dağıq Qarabağ məsələsinə siyasi-diplomatik meydançalarda da diqqət çəkməkdə davam edəcək. O sırada artıq xəbər verdiyimiz kimi, problemin BMT səviyyəsində təzədən qaldırılması da gözlənilir. Söhbət bu ilin yanvarından GUAM-da sədrliyi qəbul eləmiş Moldovanın təşəbbüsündən gedir.

Bu il həm də Bakı ilə Avropa Birliyi arasında nəhayət ki, çərçivə sazişi imzalanmalıdır. Sənəddə təbii ki, Qarabağ məsələsi də yer alacaq. Azərbaycanın şərti dəyişməzdir: ikitərəfli sazişdə ölkəmizin ərazi bütövlüyünün toxunulmazlığı, müstəqilliyi və suverenliyi birmənalı şəkildə əksini tapmalıdır. Yəqin ki, belə də olacaq. Hər halda, qurumun 2017-ci il 24 noyabr sammitində qəbul edilən Yekun Bəyannamədə Azərbaycan da daxil, "Şərq Tərəfdaşlığı" ölkələrinin hamısının ərazi bütövlüyü və suverenliyinə sadiqlik qeyd olunub.



# BMT bu sənədi qəbul etsə, Qarabağ...

**"BMT Baş Assambleyasının növbəti iclasında "GUAM məkanındakı uzunsürən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün nəticələri barədə" birgə qətnamənin irəli sürülməsi ilk növbədə mövcud problemlərin yenidən gündəmə gətirilməsinə xidmət edir". Bunu Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyinin 2018-ci il üçün ölkənin Demokratiya və İqtisadi İnkişaf naminə GUAM-a sədrliyi ilə bağlı yaydığı bəyanatı şərh edən analitik Elçin Mirzəbəyli deyib (Axar.az).**

"BMT Baş Assambleyasında Azərbaycanın və GUAM üzvü olan digər ölkələrin ərazi bütövlüyü ilə bağlı bir neçə dəfə qətnamə qəbul olunub. Bu baxımdan məsələyə ərazi bütövlüyümüzün hüquqi müstəvidən təsbiti baxımından yanaşmaq doğru olmazdı. Hazırda Ermənistanın işğalı altında olan bütün ərazilər Azərbaycan Respublikasının əraziləri hesab edilir və qəbul olunur. Sözügedən qətnamənin irəli sürülməsi isə ilk növbədə mövcud problemlərin yenidən gündəmə gətirilməsinə xidmət edir. Sənədin adından da göründüyü kimi, əsas məqsəd münaqişələrin beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün yaxşı nəticələr verməyəcəyini diqqətə çatdırmaqdan ibarətdir", - deyə o bildirib.

Qeyd edək ki, Moldovanın Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyi 2018-ci il üçün GUAM-a sədrliyi ilə bağlı yaydığı bəyanatında BMT Baş Assambleyasının növbəti iclasında "GUAM məkanındakı uzunsürən münaqişələr və onların beynəlxalq sülh, təhlükəsizlik və inkişaf üçün nəticələri barədə" birgə qətnaməni irəli sürəcəyini açıqlayıb. Bəyanatda bildirilir ki, Moldova GUAM + formatında, xüsusilə də Avropa İttifaqı və ATƏT ilə beynəlxalq əməkdaşlığı gücləndirəcək və genişləndirəcək.

GUAM-a Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna daxildir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# Bankların bağlanması iş sektorunu sarsıdır

## Ekspert: “Bu prosesdən sahibkarlar daha böyük zərər çəkir”

**Azərbaycanda bankların bağlanması prosesi davam edəcək. Maliyyə-bank sektoru üzrə mütəxəssislər apardıqları analizlərin nəticəsi olaraq, bu il ərzində daha bir neçə bankın lisenziyasının geri alınacağını proqnozlaşdırırlar.**

Xatırladaq ki, son 2 ildə ölkədə 12 bankın lisenziyası geri alınıb. Onların minlərlə işçisinin işsiz qalması ilə yanaşı, sıravi vətəndaşlar, xüsusilə iş adamları böyük zərərlə üzləşiblər: həm bağlanan banklarda hesabı, əmək haqqı, pensiya, kredit kartı olanlar, həm də o banklara əmanət qoyanlar. Gedişatdan görünür ki, yaxın aylarda daha çox sayda insan belə problemlər yaşamağa məcbur qalacaq.

Maraqlıdır ki, bağlanan bankların rəhbərlərindən, sahiblərindən prosesə etirazını açıq ifadə edib, bağlanma qərarına hüquqi müstəvidə müqavimət göstərməyə qalxanlar, demək olar ki, yoxdur. Bankların bağlanma qərarına bu qədər sakit yanaşması nə ilə bağlıdır? Nədən kimsə dövlət qurumlarının qərarını müzakirə belə etməyə çalışmır? Burada bank sahibləri ilə məmurlar arasında hansısa anlaşma nə qədər rol oynaya bilər?

**Bank sahəsi üzrə mütəxəssis, “Standard Bank” Kreditorlar Şurasının rəhbəri Əkrəm Həsənov deyir ki, Azərbaycanda lisenziyanın ləğvinə görə bir bank Mərkəzi Bankı məhkəməyə verib:** “Bu bankın adı ”Universalbank" idi. Mərkəzi Bank onun lisenziyasını ləğv edəndə məhkəməyə müraciət etdi, bərpa olundu. Daha sonra həmin bank “Kövsərbank” adı ilə fəaliyyətini davam etdirdi, Mərkəzi Bank onun lisenziyasını yenə geri aldı. Bank yenidən məhkəmə yolu ilə lisenziyasının bərpasına nail oldu, bu dəfə “Caspian Development Bank” adıyla fəaliyyətini davam etdirməyə başladı. Ötən ilin yaz aylarında həmin bank “Atabank”la birləşdi. 2016-cı ildə Mərkəzi Bank NBC Bankın lisenziyasını ləğv etdi, amma 2 həftədən sonra özü də qaytarıb bərpa etdi. Bu, Azərbaycan tarixində görünməmiş hadisəydi, çünki ölkə qanunvericiliyində belə hal nəzərdə tutulmayıb".

**Mütəxəssisin sözlərinə görə, bank sahiblərinin bankın ləğv olunmasına görə narazılığı olur:** “Lakin söhbət ondan gedir ki, bu narazılıq nəylə bağlıdır. Belə götürdükdə, əgər bank bağlanıb, sahibinə toxunulmasa, heç bir əlavə öhdəlik yaranmasa, çoxları bankların bağlanmasını istəyərlər: yetərincə qazanc əldə edib, var-dövlət toplayıblar. Hamısının həm Azərbaycanda, həm xaricdə mal-mülkü var, bəziləri isə hətta xarici vətəndaşlıq da alıb, bank isə çətin, əksər hallarda çıxılmaz duruma düşüb. Bu şəraitdə onlara sakitcə ölkədən çıxıb getməyə imkan verilsə, hamısı deyər ki, gəlin bankımı bağlayın. Lakin məsələ burasındadır ki, bankın bağlanması ilə iş bitmir axı... Bank bağlanandan sonra bütün məlumatları ləğvedici üçün açıq olur. Hansı ki, bankların heç biri fəaliyyət göstərdiyi dövrdə məlumatlarını açıqlamır. Bağlanandan sonra bankın bütün pəxırlarının üstü açılır, sahibini, rəhbərini çağırırlar ki, gəl hesabat ver görək, bunlar niyə belədir? Buna görə də bank rəhbərlərinin canında bir bağlanma qorxusu var”.




**Ə.Həsənov onu da bildirir ki, ləğvedici bankların problemlərini daha da ağırlaşdırır:** “Bankın ləğv olunması prosesi çox gəlirli bir işdir, burada ciddi korrupsiya elementləri var. Elə banklar var ki, ləğv olunanadək tutalım, 100 milyon olan itkisi bağlanandan sonra 200 milyona çatır. Bütün zərər də bank sahibinin ayağına yazılır. Buna görə də bank sahibləri bağlanmaqdansa, bankın çətinliklə də olsa fəaliyyətini davam etdirməsini üstün tuturlar. Bir misal deyim. İndiyədək bağlanan bankların yalnız 4-də kreditorlar şurası yaradılıb. Halbuki qanunvericiliyin tələbi budur ki, bütün banklarda belə şuralar yaradılmalıdır ki, ləğvetmə prosesini tam nəzarətdə saxlasınlar. Bunu yaratmırlar, çünki ortada bizim ”Standard Bank"dakı təcrübəmiz var - biz Əmanətlərin Sığortalanması Fondunun bir addımını da nəzarətdən kənarda qoymuruq. Onlar isə digər banklarda da belə olmasını istəmirlər. Təsəvvür edin ki, məhkəmə tərəfindən hələ 2017-ci ilin aprelində qərar qəbul olunub ki, “Zaminbank”ın kreditorlar şurası yaradılsın, hələ də qərara əməl edilməyib. Mən orada vəsaiti qalan bir xarici şirkəti təmsil edirəm. Yorulmuşam Əmanətlərin Sığortalanması Fonduna yazmaqdan ki, kreditorlar komitəsi ilə bağlı mənə məlumat versinlər. Verməyiblər, üz tutmuşam Apelyasiya Məhkəməsinə, oradan cavab veriblər".

**Ekspertin dediyinə görə, bankların bağlanma prosesi bu il də davam edəcək:** “2016-cı ilin dekabrında maliyyə xidmətlərinin inkişafı üzrə yol xəritəsi qəbul olunub. Orada qeyd olunub ki, problemli bankların məsələsi 2017-2018-ci illərdə həll olunmalıdır: onlar ya sağlamlaşdırılmalı, ya da bağlanmalıdılar. Belə görünür ki, sağlamlaşdırma mümkün olmadığı üçün əlac yalnız bağlanmaya qalır. Buna görə də mən vətəndaşlara tövsiyə edirəm ki, sığortalanan məbləğdən artıq əmanət qoymasınlar banka. Banklar bağlanan zaman sadə vətəndaşlarla yanaşı, həm də biznes böyük zərər çəkir: onların hesablarındakı vəsaitlər faktiki olaraq batır. Elə kiçik və orta müəssisələr olur ki, hesabı olan bank bağlandıqda tamamən müflis olur, o da bağlanır. Bu baxımdan, iş adamlarını da ehtiyatlı olmağa, göstəriciləri pis olan banklarda hesab saxlamamağa çağırıram”.

**Hüquqşünasın dediyinə görə, bank sahiblərinin bağlanma ilə bağlı hökumət qurumları ilə razılığa gəlməsi mümkün deyil:** “Çünki bankların bağlanması bir qurum deyil, bir neçə dövlət qurumuna bağlı olan məsələdir. Ən əsası isə bu məsələdə son sözü prezident deyir: ötən ilin yayında Maliyyə Bazarlarına Nəzarət Palatasının nizamnaməsinə dəyişiklik olunub. Dəyişikliyə əsasən lisenziyaların verilməsi və dayandırılması məsələsini Palata prezidentlə razılaşdırmalıdır”.

❑ **Dünya SAKİT,**
**“Yeni Müsavat”**

# Xüsusi prokuror Trampın “quyusunu qazır”

## Amerika prezidentinin Rusiya ilə əlaqələri ifşa ərəfəsində...

**ABŞ-ın prezidenti Donald Tramp 2020-ci ildə keçiriləcək prezident seçkisində namizədliyini irəli sürəcək. Bu barədə Ağ Evin mətbuat katibinin müavini Hoqan Qidli jurnalistlərə bildirib.**

“Şübhəsiz ki, prezident Tramp növbəti seçkilərdə yenidən prezident postu uğrunda mübarizə aparmaq niyyətindədir”, deyə Ağ Ev rəsmisi qeyd edib. ABŞ-da Rusiyanın 2016-cı il prezident seçkilərinə müdaxiləsi və Donald Trampın komandasının Rusiya ilə gizli əlaqələrinə dair təhqiqat aparan xüsusi prokuror Robert Müller dövlət başçısını dindirilməyə çağırmağa hazırlaşır. Hazırda ABŞ prezidenti ilə xüsusi prokuror arasında keçiriləcək görüşün məkanı müəyyənləşdirilir.

ABŞ prezidentinin administrasiyasında məlumatı şərh etməsələr də, məsələ ilə bağlı xüsusi prokurorla əməkdaşlıq etdiklərini qeyd ediblər.

“Sabah” qəzeti isə yazır ki, “Bu proses hər kəsin proqnozlaşdırdığından daha sürətlə irəliləyir”. Nəşrin xəbərində Trampın seçki kampaniyasının rəhbəri Paul Manafort və köməkçisi Rick Gatesin, həmçinin Ağ Evin keçmiş Milli Təhlükəsizlik Məsləhətçisi Maykl Flynnin də günahlandırıldığı bildirilir. Xəbərdə o da deyilir ki. Trampla prokuror Müller arasında gərginlik ötən ilin son günlərində artıb. Bunun ardınca Tramp prokuror Mülleri vəzifədən çıxaracağı barədə yayılan xəbərləri təkzib edib. Ağ Ev isə Rusiya ilə bağlı iddiaları rədd edərək, bunu rusların “əcinnə ovu” adlandırıb.



Qeyd edək ki, Federal Təhqiqatlar Bürosunun (FBI) sabiq direktoru Robert Müller ötən ilin mayında “Rusiya işi” ilə bağlı xüsusi prokuror təyin olunub. Eyni zamanda ABŞ Konqresinin hər iki palatasının müvafiq komitələri Rusiyanın seçkilərə müdaxiləsi və Trampın komandasının Rusiya ilə əlaqələrinə dair təhqiqat aparır. Xatırladaq ki, 2016-cı ilin yayında Donald Trampın oğlu prezidentliyə demokrat namizəd Hillari Klinton barədə kompromatlar almaq üçün Natalya Veselnitskaya ilə gizli görüşüb. Bu görüşü Emin Ağalarov təşkil edib. Belə ki, Emin Ağalarov atasının “baş prokurorda” Hillari Klinton barədə kompromatlar olduğu barədə məlumatını çatdırıb. Həmin kompromatları əldə etmək üçün Trampın oğlu və komandasının bəzi üzvləri rusiyalı hüquqşünasla görüşüblər, ancaq onların bildirdiyinə görə, əslində Veselnitskayada Klinton barədə kompromatların olmadığı üzə çıxıb. Bu görüşün amerikalı iştirakçıları dəfələrlə Senatın xüsusi komissiyasına və Müllerin komandasına ifadə veriblər.

“Yeni Müsavat” isə xatırladır ki, 2017-ci ilin son günlərində Trampın “Rusiya istintaqı”nı aparan xüsusi səlahiyyətli prokuror “”Robert Mueller’in vəzifəsinə son verəcəyi iddia edilmişdi.

ABŞ mətbuatı Trampın bu təşəbbüsü Konqresin Milad bayramlarında olduğu zaman həyata keçirəcəyini yazmışdı. Demokrat Partiyasının Kaliforniya üzrə nümayəndəsi Adam Schiff da iddiaları təsdiqləyərək ABŞ Konqresində bu ehtimalın danışıldığını söyləmişdi. Schiff “Konqresdəki dedi-qoduya görə, prezident bu həftə böyük bir çıxış etməyə hazırlaşır. 22 dekabr bizim Vaşinqtonda olmayacağımız bir gündür və o gün prezident Mülleri işdən azad edə bilər” deyib.

ABŞ mətbuatındakı iddialardan başqa Trampın seçkilər dönəmində vəkilliyini edən Kory Langhofer, Senatın Milli Təhlükəsizlik Komitəsinə bir məktub yazaraq Rusiya istintaqın aparan Müllerin səlahiyyəti olmadığı halda Trampın kampaniyasına aid on minlərlə e-poçt və faylları əldə etdiyini qeyd edib.

Langhofer Senata yazdığı məktubda “Bizə hər hansı bir məlumatlandırma etmədən bu sənədləri istifadə etməyə davam etmişdir” - deyə, qeyd edib.

Qeyd edək ki, Tramp Müllerdən əvvəl Rusiya istintaqını aparan Federal Təhqiqat Bürosunun (FBI) direktoru James Comey’ni vəzifəsindən azad etmişdi.

2017-ci ilin avqust ayında Müller öz səlahiyyətlərini genişləndirmək və araşdırmaları sürətləndirmək üçün böyük jürinin iclasını çağırmışdı. Bu, araşdırmanın yeni mərhələyə keçməsi kimi anlaşılırdı.

Böyük jüri (münsiflər) - adi vətəndaşlardan ibarət qrupdur və onlar mümkün qanun pozuntuları barədəki məlumatları öyrənərək ittiham irəli sürüb-sürməmək barədə qərar verirlər. Müller yeni səlahiyyətlər alsa, xüsusi prokuror bundan sonra şahidləri çağıra, məhkəmə üçün sorğular və çağırışlar edə və sənədlər tələb edə bilərdi.

Ötən il ərzində jüri Trampın oğlunun (Donald Tramp- kiçik) rusiyalı vəkil Natalya Veselniskaya ilə 2016-cı ilin iyununda baş tutan görüşü ilə bağlı şəxslərə çağırış vəsiqəsi göndərmişdi.

Həmin danışıqlarda Trampın kürəkəni Cared Kuşner və onun seçki kampaniyasının rəhbəri Pol Manafort iştirak etmişdi. İstintaqın ilkin məlumatına görə, Veselniskaya Trampın qərargahına demokratların prezidentliyə namizədi Hillari Klinton barədə Rusiya hökuməti tərəfindən toplanan kompromatları təklif edib.

Moskva və Tramp Rusiyanın seçkiyə müdaxiləsini təkzib etsə də, Müllerin jüri çağırması bunun əksini xəbər verirdi. Keçmiş prokuror Pol Kallana görə, bu, xüsusi prokurorun cinayətin törədilməsi ilə bağlı ittihama bəhanə verəcək hansısa informasiyanın üstünü açdığını göstərirdi.

❑ **Sevinc TELMANQIZI,**
**“Yeni Müsavat”**

**Amerika yenidən qaynamağa başlayıb. Prezident seçkiləri ili olmasa da, artıq növbəti seçkilərdə kimlərin namizəd olacağı müzakirə mövzusuna çevrilib. CNN-in xəbərinə görə, tanınmış xanım aparıcı Oprah Vinfrey prezidentlik yarışına girməyi aktiv bir şəkildə düşünür. Xəbərdə həmçinin qeyd edilib ki, Vinfreyin çevrəsindən də prezidentlik yarışına girməsi üçün ona təzyiq göstərilir.**

# Odioz prezidentlərə qarşı gözəl xanımlar-iki məşhur isim

## Kseniya Sobçak Putinlə, Oprah Virfrey isə Trampla prezidentlik uğrunda yarışacaq

### “Amerikada prezident olmaq üçün təcrübəyə ehtiyac yoxdur” dedi və...

“Yeni Müsavat” xarici mediaya istinadən bu prosesin pərdə arxasını aralayir və detalları sizin nəzərinizə çatdırır.

Öncə ondan başlayaq ki, Demokrat Partiyası 2018-ci ilin ortalarında namizədlərini açıqlamağa başlayacaq. Amma partiyanın hələlik bir namizədi yoxdur. Məşhur aparıcının illərdir davam edən televiziya verilişində yaratdığı imic ona Demokratik Partiyadan namizədlik qapısını aça bilər.

Vinfreyin yetərincə siyasi təcrübəsinin olmaması isə ona ünvanlanan tənqidlərin başında gəlir. 2017-ci ilin dekabrında “Bloomberg”ə verdiyi müsahibədən sonra müxbirin “Çox aydın bir şəkildə görünür ki, Amerikada prezident olmaq üçün təcrübəyə ehtiyac yoxdur” şəklindəki şərhi üzərinə Oprah Vinfrey, “Təcrübəmin olmadığını düşünürdüm. *(prezident Donald Trampa işarə edərək).* Amma indiyə qədər ölkədə nələr olduğunu görüncə fikrim dəyişdi” sözlərindən istifadə etmişdi.

Amerikada ən çox qazanan televiziya ulduzlarından biri olaraq bilinən Vinfrey öz adını daşıyan bir talk shou proqramını aparır.

### 62 yaşlı media kraliçası - “bataqlığın dibindən” zirvəyə...

“Prezidentlik Azadlıq Medalı” ünvanını daşıyan Oprah Vinfrey Harvard Universitetindən də fəxri bir doktorluq dərəcəsi qazanıb. Amma bu, populyar aparıcı barədə bilinməyənlər xeyli çoxdur. İndi də onun Donald Trampla kəllə-kəlləyə gələcəyi nəzərə alınsa, ortada olduqca ciddi durum var.

Çoxlarına görə qaradərili amerikanların ən şanslısı, bəzilərinə görə də ən inadçısı... Qabiliyyəti və qərarlılığı sayəsində sıfırdan başlayaraq zirvəyə yerləşən məşhur aktrisa, televiziyaçı və yazar Oprah Vinfreyə “yoxsul qadınların ümidi” də deyilir.

Vinfrey qurucusu və yayım direktoru olduğu “O-Oprah Maqazin” jurnalında 14 il boyunca qələmə aldığı həyat təcrübələrini “Artıq bilirəm” adlı kitabında topladı. Doğan Novus nəşriyyatı tərəfindən nəşr olunan kitab çətinliklərlə mübarizə aparmaq və həyatın möcüzələrini görmək məsələsində tayı-bərabəri olmayan dərslər təqdim edir.

Bir mədənçinin qızı olaraq yoxsulluğun dibində bir həyata doğmuşkən Amerikanın ən varlı və güclü qadınları arasında ilk sıralara oturan Oprah Vinfrey amerikan yuxusunun həqiqi təmsilçisidir. Televiziya kanalı, jurnalı, kitabları, bir zamanlar Oskar mükafatına belə namizəd göstərilməsini təmin edən aktrisalığı vasitəsilə dünyanın hər yerindəki qadınları ürəkləndirir, bir növ onlar üçün bir ümid işığı olur. Oprahın söhrət pillələrini dırmanması dövlət yardımı ilə oxuduğu liseydə yerli bir radioda yarı zamanlı verilişdə aparıcılıq etməsi ilə başlayıb. 18 yaşında “Amerikanın ən gözəl qaradərili qızı” seçilib və az keçmədən yerli bir kanalda xəbər mərkəzində təmsil olunmağa başlayıb.

İlk talk sousunu hələ çox gənc ikən, yenə bu kanalda hazırlayıb. Təbii ki, böyük bir kanala transfer olduqdan sonra Oprah verilişini daim zənginləşdirib, aralara kitab müzakirə bölümləri, insan hekayələri, qadın sağlamlıq bölümləri, psixologiya ilə bağlı seminarlar, alış-veriş tövsiyələri əlavə edib. Heç kəsin öyrəşmədiyi tərzdə, dostcasına söhbət etdiyi məşhurları da yaddan çıxarmamaq lazımdır. Amma Opraha hücumlar da çox olur.

Siyasi tövrünü gizlətməməsi, demokrat namizədlərini açıq şəkildə dəstəkləməsi tənqidlərin başında gəlir.

“Media kraliçası” ləqəbli bu məşhur şəxsiyyətin öz kitabına gəlincə... 62 illik həyatındakı uğurlarını, münasibətlərini, dostluqlarını, artıq çəkilərini və həyatdan öyrəndiklərini də yazır, ağrılarını da... Məsələn, kiçik yaşlarda cinsi istismara məruz qaldığı dönəmin detalları isə olduqca çarpıcıdır. Amma ona acımırıq, çünki bu bölümə 17-ci əsrt yapon şairi Mizuta Masahidenin “Anbar yandı. Artıq Ayı görə bilirəm” sətirləri ilə giriş verir.

### Səhər verilişlərinin “anası”, qadınlar üçün 5 əsas məsləhətin müəllifi

**Amerikalı televiziya aparıcısı “səhər verilişlərinin anası” sayıla bilər. Media kraliçasının qadınlara kişilərlə bağlı 5 tövsiyəsi var: “Bir kişi sizi istəyirsə, kimsə onu yolundan döndərə bilməz. İstəmirsə heç bir şey onu sizin yanınızda saxlaya bilməz. Bu səbəbdən də kişiləri və nəyi, niyə etdiklərini düşünməkdən vaz keçin. Sizi ürək sızıltısından qoruyacaq tək şey intuisiyalarınızdır”.**

**“Əgər münasibətləriniz o adamın sizə haqq etdiyiniz kimi davranmadığı üçün bitibsə, dost-filan qala bilməzsiniz. Gerçəkdən dostunuz olsa sizə bu qədər əziyyət edər, pis şeylər yaşadardı?”**

**“Heç bir kişi üçün yerinizi-yurdunuzu dəyişdirməyin. Sizi gerçəkdən çox sevirsə, o, sizin yaşadığınız şəhərə köçsün. Və ona əsla sizdən önəmli olduğunu düşündürməyin. Daha savadlı, mədəni və varlı olsa beləE Xüsusən də ona yarı-tanrı münasibəti heç göstərməyin.”**

**“Sizi aldatdığını sezirsinizsə, yanılmış olmanız kiçik bir ehtimaldır. İşlərin düzələcəyini də gözləməyin. Üzgünəm, amma heç bir şey yolunda getməyəcək və bir xəyanət çənbərinin içinə həbs olsanız, hər keçən gün daha çox əsəb keçirəcəksiniz”.**

**“Bir çox qadın onlara zərər verən kişilərlə birlikdə olmağa davam edər. Çünki yalnız qalmaqdan ölüm qədər qorxarlar. Halbuki inan mənə, siz bir kişinin başına gələ biləcək ən gözəl şeysiniz və əgər sizinlə pis davranırsa, burnunun ucunda aydın şəkildə dayanan bu həqiqəti görə bilməyəcək qədər kor deməkdir. Nə qədər cazibədar olursa olsun, bayırda saysız-hesabsız variantlarınız var. Bundan başqa, həmin adam dünyadakı tək kişi də deyil”.**

### Sobçak da prezidentə qarşı, amma daha sərt və iddialı

Amma Oprah nümunəsi bizə başqa bir gerçəyi də xatırlatdı. Bilirsiniz ki, hazırda Rusiyada da seçki ilidir və Putinin opponentləri bir-bir meydana çıxır. Onlardan biri də məşhur teleaparıcı, şou-biznes dünyasının vazkeçilməzi, qalmaqallar kraliçası Kseniya Sobçakdır. Sobçak da 2017-ci ilin oktyabrında Putinə rəqib olduğunu bəyan edib. O, martda keçiriləcək seçkilərdə iştirakını “gözlənilməz namizədliyi” ilə izah edir. Xanım Sobçak ilk gündən deyib ki, namizədliyi qəbul edilməyən müxalifət lideri Aleksey Navalnını dəstəkləyir. Ancaq Navalnı ona namizəd olmaması ilə bağlı xəbərdarlıq edib.

İlk vaxtlar Kreml Sobçakın namizədliyini qəbul edərək bunun “tamamilə konstitusiya uyğun olduğunu” söyləyib. Amma Kseniya seçkilərdə qələbə qazanmaq şansının az olduğunu etiraf edib. O, bu haqda Britaniyanın “The Guardian” qəzetinə müsahibəsində bildirib. **“Heç bir siyasi çəkim yoxdur. Ona görə də hansısa siyasi proqram başlada bilmərəm. Sadəcə, hazırkı rəhbərliyin siyasətindən narazı olanlar məni dəstəkləyə bilər”, -** K.Sobçak deyib.

K.Sobçak onun kampaniyasının Kreml tərəfindən dəstəklənməsi fikrini qətiyyətlə rədd edib.

Amma S.Sobçak yerli mətbuata müsahibələrində iddialarını daha da qabartmanın tərəfdarıdır. Məsələn, “Dojd” kanalının baş direktoru Natalya Sindevaya müsahibəsində o, qələbəsinə ümid bəslədiyini deyib. Aparıcı onun cəmi 2 faiz səs toplayacağını proqnozlaşdıranda Sobçak buna belə etiraz edib: **“Milyonların səsini qazanacağıma şübhə etmirəm. Piara ehtiyacım yoxdu. Seçki qrafamda yazılacaq ki, tək Putinə deyil, bütün namizədlərə qarşıyam. Soruşsanız kim maliyyələşdirəcək bu seçki marafonumu, deyəcəm heç kim. Sadə, narazı biznesmenlər. Sıralarımda pərəstişkarlarım az deyil”.**

35 yaşlı Sobçak 2012-ci il prezident seçkisindən əvvəl başlayan etiraz aksiyalarında iştirak etmiş Putinin vokal tənqidçisidir. Putin, Sovet İttifaqının dağılmasından sonra 1990-cı illərdə Sankt-Peterburqda birlikdə işləyərkən, köhnə müəllimi və demokrat-islahatçı Anatoli Sobçakın ona çox böyük təsir göstərdiyini etiraf edib.

**“Mümkündür ki, oğlum səsvermə yaşına çatdıqda, hələ də eyni namizədlər olacaq, - ötən il ana olmuş K.Sobçak ”YouTube"dakı videoda namizədliyini elan edərkən bildirir. - Biz hakimiyyət sistemini dəyişdirməliyik",** - deyərək o əlavə edib ki, Putinə öz qərarından danışdıqda dövlət başçısı məmnun deyildi.

Bu isə artıq iki ayrı ölkədə bir-birinə bənzər siyasi örnəklərin olduğunu bizə göstərir. Adioz prezidentlərə qarşı gözəl xanımlar rəqib kimi çıxış edirsə, bunun bir məntiqi açıqlaması olmalıdır. Diqqət etdinizsə, hər iki variantda prezidentə qarşı gələnlər telekaryerası olan, siyasəti, şou dünyasını, publikanı ovcunun içi kimi mənimsəyənlərdir. Hər ikisi prezidentin siyasətini tənqid edir və özünün ondan qat-qat yaxşı prezident olacağını iddia edir. Bu isə sözügedən xanımların siyasi ambisiyalarından, iddialarından daha çox diqqəti seçkilərə çəkmək, vəzifədə olan prezidenti gözdən salmaq cəhdləridir. Hər ikisi sarkazm dolu münasibət sərgiləyir: o, prezident olubsa, mən niyə olmayım? Və açığı, diqqət də cəlb edir. Bunun necə nəticələnəcəyini isə zaman göstərəcək: siyasi oyun, yoxsa gerçək rəqabət?

❑ Sevinc TELMANQIZI,
“Yeni Müsavat”













YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

**Bakının "Sovetski" kimi tanınan məhəlləsində 2014-cü ildən etibarən başlanan köçürmə işlərinin artıq ikinci mərhələsi başlanır. Yasamal Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Köçürmə Komissiyasının sədri Səməd İslamov APA-ya açıqlamasında bildirib ki, 2018-ci ilin yanvarından Bakının "Sovetski" kimi tanınan məhəlləsindən növbəti köçürülmə prosesinə start veriləcək.**

# "Sovetski"də növbəti söküntü-kompensasiya yenə narazılıq yaradıb

## Sakinlər yanvarın axırına qədər köçürüləcəklərini gözləyirlər













Onun bildirməsinə görə, yeni mərhələdə köçürmə işləri ilə bağlı sənədləşdirmə işləri aparılır. Daha 2 min evin köçürülməsi prosesi həyata keçiriləcək.

"Sovetski" ərazisindən köçürmənin birinci mərhələsi 2017-ci ilin avqustunda başa çatıb. Bu prosesdə 4 min 300 ailə ərazidən çıxarılıb. Bildirilib ki, bəzi ailələr verilən kompensasiyanın məbləğinə etiraz edərək dirəniş göstəriblər. Həmin ərazidə hər kvadratmetrə 1500 manat ödənildiyi də icra hakimiyyəti tərəfindən söylənilib.

"Yeni Müsavat"ın əməkdaşı olaraq "Sovetski" ərazisində olub, aparılan işlərlə maraqlandıq. Müşahidə etdik ki, hazırda ərazidə çoxsaylı ustalar, texnikalar çalışır, qızğın iş gedir. Lakin söylənildiyi kimi, söküntü deyil, tikinti işləri aparılır. Belə ki, ötən il boşaldılan 26 hektarlıq park və yaşıllıq salınması üçün nəzərdə tutulan ərazinin ətrafına dəmir hasar çəkilib, tikinti ilə bağlı bütün təhlükəsizlik tədbirləri nəzərə alınıb. Ərazidə texnikalar işləyir, kanalizasiya sistemi çəkilir və digər bu kimi müvafiq tikinti işləri görülür. Orada çalışan ustalar bildirdilər ki, ilin sonuna qədər tikintilərin tam başa çatacağı gözlənilir. Plana görə ümumilikdə 6 kilometrdən çox olan 5 küçədə əsaslı şəkildə yenidənqurma işləri aparılmalıdır. Həmin küçələrə Balababa Məcidov, Abdulla Şaiq, Mirzağa Əliyev, Füzuli küçəsinin davamı və Nəriman Nərimanov küçələri daxildir. Hazırda isə bu küçələrin əksəriyyətində piyadaların hərəkəti üçün səki belə mövcud deyil. Mirzağa Əliyev küçəsində isə ümumiyyətlə, iki avtomobil yan-yana hərəkət edə bilmir. Belə bir şəraitdən sakinlər də narazıdırlar və köçürüləcəkləri günü gözləyirlər. Söhbət etdiyimiz Mirzağa Əliyev küçəsinin sakinləri bildirdilər ki, onların mənzillərini iki-üç il bundan öncə ölçüblər: "Doğrusu, bizə 2015-ci ilin sentyabr ayında deyirdilər ki, qışa kimi bu ərazilər söküləcək. Əvvəl deyirdilər ki, bu əraziləri ərəblər alıblar və hansısa obyektlər tikəcəklər. Camaat da sevinirdi ki, ərəblər alıbsa, yəqin kompensasiya da yaxşı olacaq. Həmin ərəfələrdə Yasamal Rayon İcra Hakimiyyətinin nümayəndələri gəlib, mənzilləri ölçdülər. Bildirdilər ki, kvadrata 1500 manat kompensasiya ödəyəcəklər. 2016-cı ildə də deyirdilər ki, payızda buralar söküləcək. 2017-ci il başlayanda dedilər ki, yazda burada bir dənə də ev qalmayacaq. Kirayə qalanların da hamısı başqa evlərə köçdülər ki, ərazi sökülür. İndi də 2018-ci ildir və deyilənə görə, bu ayın axırına qədər bizə konkret söz deyəcəklər".

Sakinlərlə söhbətimiz zamanı onlar kompensasiyanın azlığından da şikayətləndilər. Söylədilər ki, tikinti materialları bazarında qiymətlər 2014-cü ildəki kimi deyil, bahalaşıb. Ona görə də ən azı 2 min manat kompensasiyanın verilməsi arzusundadırlar.

Plana görə, ikinci mərhələdə Nərimanov prospektindən yuxarı, İsmayıl Qutqaşınlı küçəsinə qədər olan hissə köçürüləcək. Üçüncü mərhələ isə köçürülmə Murtuza Muxtarov və Nərimanov prospektini, Süleyman Tağızadə küçələrinədək olan ərazini əhatə edəcək.

Hazırda "Sovetski"nin söküntü aparılmayan hissələrində yaşam normal qaydada davam edir. İşlərin aparıldığı əraziyə yaxın yerləşən Çingiz Mustafayev küçəsinin bir hissəsində söküntü aparılsa da, digər hissələrdə sakinlər gözləmə mövqeyindədirlər. Bildirdilər ki, yaxınlıqda tikinti başlanan zamanlarda kommunal xətlərində ciddi problemlər olurdu. Hazırda isə bu barədə problem yoxdur. **Küçənin 74 yaşlı sakini Əzizağa Qəmbərov** bildirdi ki, onlara konkret söz deyən yoxdur: **"Axşam məhəllədə elə bu barədə söhbət edirdik. Hələ camaat bilmir ki, hansı küçəni sökəcəklər. Süleyman Rəhimov küçəsinin camaatı deyir ki, bizim küçəni sökəcəklər, bizimkilər də hesab edir ki, söküntü onlar tərəfdən başlayacaq. Ona görə də biz ikinci mərhələnin başlanmasından, işlərin necə gedəcəyindən məlumatsızıq. Ancaq eşitmişik ki, bu ayın axırına qədər nə isə deyiləcək. Başçını da çıxarıblar, daha əvvəlki kimi buralara gedib-gələn də yoxdur. İbrahim Mehdiyev başçı olanda, tez-tez gəlirdi söküntü aparılan yerlərə. Kim evindən çıxmaq istəmirdisə, kompensasiya ilə razılaşmırdısa, onu qışqırda-qışqırda evindən çıxarırdılar, evini də sökürdülər. Bizi də yəqin ki, elə günlər gözləyir. Evinin sahəsi az olan köçmək istəmir. Ev balaca olsa da şəhərin mərkəzindədir. Aşağı düşürük, istədiyimiz idarəyə 10 dəqiqəyə çatırıq. Sizə deyim ki, bu dəqiqə Qobunun əksəriyyəti "Sovetski" camaatıdır. Evini söküblər, kvadratı az olduğu üçün kompensasiyanı da az alıb, məcbur qalıb Qobuda ev tikib. Sahəsi böyük evdə yaşayanlar üçün fərqi yoxdur. Bir qisim də evini kirayə verənlərdir burada. Onlar da söküntü işləri ilə maraqlanmırlar".**

Onu da qeyd edək ki, Yasamalın keçmiş icra başçısı İbrahim Mehdiyev prezidentin sərəncamı ilə 1 iyul 2017-ci ildə vəzifəsindən azad edilib. Yasamal rayonu artıq 6 aydır ki, icra başçısız qalıb. İbrahim Mehdiyev yuxarıda qeyd etdiyimiz Çingiz Mustafayev küçəsində yerləşən "Hacı Cavad" məscidinin sökülməsini "özbaşına həyata keçirdiyinə görə" vəzifəsindən azad edilib.

**❑ Əli RAİS,**
**Fotolar müəllifindir.**







## Bu gün Bakıda hava kəskin soyuyacaq, sulu qar yağacaq

**Azərbaycanda yanvarın 10-da gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin qeyri-sabit olacağı, arabir yağış yağacağı, bəzi yerlərdə sulu qara keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək, günün ikinci yarısında mülayimləşəcək.**

Havanın temperaturunun Bakıda və Abşeron yarımadasında gecə və gündüz 2-5 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunundan 773 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında yanvarın 10-da bəzi yerlərdə arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, əsasən şimal və şərq rayonlarında intensiv olacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 4-8 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 0-5 dərəcə şaxta olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza görə, yanvarın 9-u axşamdan 10-u axşamadək Abşeron yarımadasında güclü xəzri küləyi fonunda temperaturun aşağı enəcəyi gözlənilir ki, bu da meteohəssas insanlar üçün əlverişsizdir.

YENİ MÜSAVAT
N 5 (6894) 10 yanvar 2018

# Havalar pisləşir - dövlət qurumları qara hazırdırmı...

## Aidiyyəti təşkilatlar problem olmayacağını vəd edir...

**Sinoptiklər hava şəraitinin kəskin dəyişəcəyi ilə bağlı xəbərdarlıq edib. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin məlumatına görə, Bakıda və Abşeron yarımadasında yanvarın 9-u axşamdan 10-u gündüzədək hava şəraitinin qeyri-sabit olacağı, arabir yağış yağacağı, bəzi yerlərdə sulu qara keçəcəyi gözlənilir. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 4-6 dərəcə aşağı enəcək. Azərbaycanın rayonlarında yanvarın 9-u axşamdan 11-i səhərədək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, bəzi yerlərdə intensiv olacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə 4-6 dərəcə aşağı enəcək...**



Məlumdur ki, Azərbaycanda qış fəsli elə də sərt keçmir. Qar yağanda isə bunun ömrü maksimum 5-10 gün çəkir. Ancaq bu müddət ərzində bir sıra kommunal xidmətlərdə ciddi problemlər yaşanır. Məsələn, hələ qar yağmayıb, amma Bakı və Abşeronun bir çox hissələrində ötən bir həftə ərzində qaz problemi olub.

Dövlət qurumlarının kəskin hava şəraitinə necə hazırlaşdıqları ilə maraqlandıq.

**"Azəriqaz" İstehsalat Birliyinin mətbuat xidmətinin rəhbəri İbrahim Kərbəlayev havalar soyuduqca təbii qazın həcminin və təzyiqinin artırıldığını, qarlı, soyuq havalarda əhalinin qazla bağlı heç bir problem yaşamayacağını bildirdi:** "Qaz təsərrüfatında bütün işlər görülüb. Artıq yaz aylarından başlayaraq qış aylarında, havaların soyuq şaxtalı keçdiyi dönəmdə istehlakçıların qaz təchizatını fasiləsiz təmin etmək məqsədilə qaz təsərrüfatında xeyli işlər görülüb. Bu işlər artıq yekunlaşdırılıb. Gündəlik olaraq da işlərimiz davam etdirilir, təhlükə yaradan hissələr aradan qaldırılır və istehlakçılara qaz nəql etmə sisteminin yaxşılaşdırılması məqsədilə işlər aparılır. Havalar soyuduqca təbii qazın həcmi də artırılıb. Bundan sonra da şaxtalı, soyuq hava olduqda istehlakçılara verilən təbii qazın həcmi artırılacaq və tələbata uyğun təmin ediləcək. "Azəriqaz" İstehsalat Birliyinin təmir və tikinti idarəsinin işçi heyəti avadanlıq və maşın mexanizmi ilə tam təmin edilib. Əgər qəza halları baş verərsə, işçi heyəti dərhal aradan qaldıracaq".

**"Azəristiliktəchizat" ASC-nin Abonent və müştəri xidmətlərinin rəisi Rafiq Əliyev mövcud qazanxanaların iş prinsipinin üç parametrdən - təbii qaz, su və elektrik enerjisindən asılı olduğunu dedi:** "Artıq noyabrın 15-dən bizim istilik mövsümümüz başlayıb. Qazanxanalarımız tam rejimdə işləyir. Heç bir problem yoxdur. Mövcud parametrlərə uyğun 2017-2018-ci il payız qış mövsümü üçün nəzərdə tutulan bütün yaşayış binaları, məktəblər, uşaq bağçaları, səhiyyə müəssisələri və digər sosial obyektlər bu gün normal rejimlə istiliklə təmin olunublar. Havaların necə keçməsindən asılı olmayaraq heç bir fasiləyə yol vermədən istilik rejimi davam etdiriləcək. Sadəcə, hava soyuq keçəndə ətraf mühitin temperaturundan asılı olaraq qazanxanalardan binalara ötürülən istiliyin temperaturu müəyyən qədər artırılır. Bu, təsdiq olunmuş temperatur qrafikinə uyğun olaraq həyata keçirilir. Eyni zamanda mövcud qazanxanaların iş prinsipi qaz, su və elektrik enerjisindən asılıdır. Yəni bunların verilməsində hər hansısa bir fasilə olmasa, bütün qazanxanalarımız fasiləsiz normal rejimdə işləyəcək".

**"Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı isə bildirdi ki, soyuq havalarda problem yalnız Bakıətrafı qəsəbələrdə yarana bilər:** "Biz soyuq və qarlı havaya tam hazırıq. Anbarlarımızı, xətlərimizi, şəbəkələrimizi hazır vəziyyətə gətirmişik. Hava şaxtalı olsa belə su təchizatında heç bir problem olmayacaq. Problem Bakıətrafı qəsəbələrdə ola bilər. Xüsusilə də bu ərazilərdə yerləşən həyət evlərində su xətləri yerin üstü ilə çəkilib. Onlar dona bilər. Biz orada yaşayan insanlara hər il tövsiyə edirik ki, o xətlərin donmaması üçün ya yerin altına basdırsınlar, ya da ki, onun üzərinə izolet çəksinlər ki, donmaya qarşı davamlı olsun. Amma bizim "Azərsu" ASC-nin xətlərinin, şəbəkələrinin hamısının xətləri yerin altı ilə çəkilib. Ona görə də bu xətlərin donma ehtimalı yoxdur".

**"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyinin Mətbuat Katibliyinin rəhbəri Anar Nəcəfli qarlı havaya 100 faiz hazır olduqlarını, amma buna baxmayaraq, yollardakı problemlərin qaçılmaz olduğunu bildirdi:** "Ümumiyyətlə, qarlı və şaxtalı havalarda hər hansı problemlərin olması qaçılmazdır. Hər hansı bir qurum desə ki, 100 faiz biz hazırıq, bu o demək deyil ki, yolda hansısa bir problem yaşanmayacaq. Çünki qış fəslidir və xəbərlərdən də görürük ki, dünyanın hər yerində problem yaranır. Biz qurum olaraq 100 faiz hazırıq. Texnikalarımız hazır vəziyyətdədir, istənilən qədər qum, duz ehtiyatımız var. Bütün enişli-yoxuşlu yollar nəzarətə götürülüb. Ora da qum-duz qarışığından ibarət topalar yığılıb. Qış fəsli hələlik Bakı şəhərində elə də hiss olunmasa da, xeyli müddətdir ki, dağlıq ərazilərdə özünü göstərir. Orada da mütəmadi olaraq bizim əməkdaşlarımız, texnikalarımız tərəfindən qarın təmizlənməsi və yollara nəzarət aparılır. İstənilən halda müəyyən yollarda bizdən asılı olmayan səbəblərdən problem olacaq. Sürücülərimizdən də çox şey asılıdır. Avtomobil əgər hələ də yay şinləri ilə idarə olunursa, istənilən halda yollardakı qar təmizlənsə də, təmizlənməsə də, həmin avtomobillərin hərəkətində problem yaranacaq. Bizim sürücülərimiz bəzən bu nüansa bir az laqeyd yanaşırlar. Əgər havanın temperaturu artıq 7 dərəcədən aşağı düşürsə, mütləq şəkildə qış şinlərinə keçilməlidir. Hazırda havanın temperaturu 7 dərəcədən aşağı düşdüyünə görə qar yağdı, yağmadı, qış şinlərindən istifadə olunmalıdır ki, gələcəkdə problemlər yaşanmasın".

❑ **Günel MANAFLI,**
❑ **"Yeni Müsavat"**

# Reket jurnalistin məhkəməsində sabiq icra başçısı ifadə verdi

## Ramiz Cabrayılov: "Mənə dəyən 15 min manat zərər qəpiyinə qədər ödənilib"

**Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) əməkdaşları tərəfindən həbs edilən və reket fəaliyyətində ittiham olunan "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Vəliyevin cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib.**




Musavat.com xəbər verir ki, işə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Fikrət Qəribovun sədrliyi ilə baxılıb.

Məhkəmədə zərərçəkmişlər ifadə verib.

İlk olaraq zərərçəkmiş Rasim Rəsulov ifadə verib. O, Habil Vəliyevi bir dəfə gördüyünü deyib.

Zərərçəkən söyləyib ki, Hacıqabulda əmisi oğlu ilə aralarında obyekt üstündə mübahisələri olub. Qohumu "Gündəlik Bakı" qəzetində onu biabır edəcəyini deyib.

"Mən də maraqlandım ki, bu qəzet kimindir. Məlum oldu ki, Habil Vəliyevindir. Mənim sənədlərim qaydasında idi. Heç bir problem yox idi. Habil Vəliyevin otağına daxil olanda masasının üstündə sənədlər var idi. Habil dedi ki, sizin işlər, alqı-satqı saxtadır. Sənədi aidiyyəti qurumlara göndərəcəyini dedi. 10 min dollar istədi. Biz razılaşmayıb çıxdıq. Tanışım Rabillə getmişdik. Rabilə dedim ki, min dollar verə bilərəm. Rabilə 780 manat pul verdim ki, Habil Vəliyevə versin"- deyə zərərçəkmiş qeyd edib.

Zərərçəkmiş suallara cavabında əmisi oğlu ilə razılığa gəldiklərini, işin həll olunduğunu söyləyib. O, tanışı Rabilin pulu Habil Vəliyevə verdiyini söyləyib.

H.Vəliyev isə zərərçəkmişi tanımadığını, onu görmədiyini deyib.

Rasim Rəsulov 780 manatını tələb etdiyini söyləyib.

Digər zərərçəkmiş Ramiz Cəbrayılov ifadəsində qeyd edib ki, Habil Vəliyevlə heç bir tanışlığı, əlaqəsi yoxdur.

**Laçın Rayon İcra Hakimiyyətinin sabiq icra başçısı olmuş Ramiz Cəbrayılov Habil Vəliyevdən şikayətçi olmadığını deyib.**

"Mənə 15 min manat mənəvi zərər dəyib. Qəpiyinə qədər ödənilib. Heç bir şikayətim yoxdur. Onu bu işə dələlət edən şəxslər var. Onlar indi də öz yerlərindədir" - deyə R.Cəbrayılov söyləyib.

O, növbəti proseslərə gələ bilməyəcəyini, şikayət və tələbinin olmadığını qeyd edib.

Məhkəmədə zərərçəkmiş qismində Tofiq Abbasov da ifadə verib. O, Təhsil Nazirliyinin əməkdaşı olub. T.Abbasov bildirib ki, Habil Vəliyev onunla bağlı şantaj xarakterli yazılar yazacağını deyib və ondan pul tələb edib. T.Abbasov Habil Vəliyevə 500 manat verdiyini söyləyib.

Zərərçəkmiş 500 manatının ödənildiyini və şikayətinin olmadığını deyib.

Qeyd edək ki, H.Vəliyev Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat zamanı tutulub.

DTX-nin İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarda dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər Dövlət Təhlükəsizliyi Xidmətində araşdırılarkən Azərbaycan Respublikası ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb.

❑ **İlkin MURADOV,**
❑ **Musavat.com**

YENİ MÜSAVAT

# Son səhifə

N 5 (6894) 10 yanvar 2018



## Toyuq burgeri yedi, dünyasını dəyişdi

**Britaniyanın Mançester şəhərində 18 yaşlı qız toyuq burgeri yeyəndən sonra allergiya şoku keçirib. Bu barədə lenta.ru saytı "The Mirror"a istinadən xəbər verir. İstintaqın nəticələrinə görə, Şahida Şadid toyuq bürgeri yeyəndən bir saat sonra anlaqsız vəziyyətə düşüb. 3 gün sonra isə dünyasını dəyişib. Hadisə 12 yanvar 2015-ci ildə baş verib.**

2015-ci ildəki dinləmələr zamanı məlum olmuşdu ki, personal Şadidə bu yeməyi məsləhət görüb. Buna baxmayaraq, gənc qız onlara allergiyası olması barədə məlumat verib. Buna baxmayaraq, yeməyin tərkibində süd məhsulları var idi ki, qızın da buna allergiyası vardı. Bundan başqa, qız yumurtaya, balığa və qoza allergiyadan əziyyət çəkirdi.

2017-ci ilin 8 yanvarında bu işlə bağlı rəsmi dinləmələr başlanıb. Qohumları bildiriblər ki, qız dörd dostu ilə birlikdə restorana gedib. Məqsəd universitetdə birinci semestrin bitməsini qutlamaq idi. Onlar eyni zamanda bildiriblər ki, qızlar müntəzəm olaraq restoranda yemək yeyirdilər və hər zaman da ofisiantlara allergiyası ilə bağlı detalları bildirib. Dinləmələr hələ davam edir, restoran isə olayla bağlı hər hansı şərh verməyib.

## 2018-ci ildə öləcək şəxslərin siyahısı hazırlandı

**Bundan öncəki illərdə etdiyi doğru təxminlərlə mübahisələrə səbəb olan "The Deathlist" adlı sayt 2018-ci ilin "ölüm siyahısı"nı yayımlayıb. Saytın bu, ilki siyahısında məşhur fizik Stefün Havkinq (75), aktrisa Olivia Nevton-John (69), aktyor Kirk Duqlas (101), Rolling Stones'un əfsanə adlarından Ronnie Vood (70), Misirin eks prezidenti Hüsnü Mübarək (89) və İngiltərə kraliçası Yelizavetanın həyat yoldaşı Şahzadə Filip (96) kimi tanınmış adlar yer alır.**



2016-cı ildə Deyvid Bovie, Məhəmməd Əli, Corc Maykl və Keri Fişer kimi idman, kino və sənət dünyasının önəmli adlarının öləcəyini təxmin edən sayt bu il də bəzi təxminlər irəli sürüb. Saytın 2017-ci il üçün hazırladığı 50 nəfərlik siyahıdan 17 nəfər ötən il ərzində dünyasını dəyişib. Siyahıdakı ən gənc adam 51 yaşındakı məşhur ingilis futbolçu olduğu halda, ən yaşlı şəxs 103 yaşına girən amerikalı romançı Herman Vouk olub.

## Sevgilisinə onu doladığı üçün 88 bıçaq zərbəsi vurdu



**34 yaşındakı İrina Kozlova adlı rus sevgilisi tərəfindən 88 dəfə bıçaqlanaraq öldürülüb. Rus xizəkçi və snowboard idmançısı olan İrina Kozlovanı öldürən Yevgeni Markov adlı adam cinayətə qadının onu dolamasının səbəb olduğunu deyib. Maşın yuyucusu olan Yevgeni Markov sevgilisinə iş adamı olduğunu söyləmişdi. Adamın həqiqi işini öyrənən rus xizəkçi sevgilisini dolayanda isə sonuncu bunu yadından çıxarmayıb. Sevgilisinin onu doladığını görüb, xaincəsinə bir plan hazırlayıb. Ona romantik bir sürpriz hazırladığını deyərək ən sevdikləri yerə gedib, onu orda gözləməsini istəyib.**

34 yaşındakı qadının yanına gələn adam maşınında onu gözləyən sevgilisinin gözlərini bağlamasını istəyib. Ona hazırlanan sürprizi gözləyən qadın bir-birinin ardınca gələn bıçaq zərbələri ilə sarsılıb. 88 bıçaq zərbəsi ilə qadını faciəli şəkildə öldürən adam maşından çıxıb hadisə yerindən uzaqlaşıb. İrinanın qan içindəki bədəni Sibirin Ust-Mana kəndindəki maşınında tapılıb.

Rus idmançı yaxın zamanda boşanmış, qısa bir müddət sonra da Yevgeni Markovla sevgili olmuşdu. 34 yaşlı qatil isə bir restoranda axşam yeməyi yeyəndə polis tərəfindən saxlanılıb.

## Qoroskop




**QOÇ** - Hiss olunur ki, ətrafınızda cərəyan edən hadisələr sürətli olsa da, cansıxıcı təsir bağışlayır. Amma bu, ötəridir. Əgər qərarlarınızda qətiyyət göstərsəniz, narahatlıq olmayacaq.

**BUĞA** - Əvvəlki günlərlə müqayisədə sağlıq durumunuz qənaətbəxşdir. Bundan irəli gələrək fəaliyyətinizi aktivlik müstəvisinə yönəltmək imkanı qazanacaqsınız. İşgüzar görüşləri təxirə salmayın.

**ƏKİZLƏR** - Ulduzların düzümü kənar təsirlərə məruz qalacağınızdan xəbər verir. Ələlxüsus da saat 12-15 arası ehtiyatı əldən buraxmamalısınız. Sevgi münasibətlərini arxa plana salmayın.

**XƏRÇƏNG** - İlin-günün bu vaxtında orqanizminiz də passivləşməyə vaxt tapıb. Halbuki indiki ərəfədə qarşınızda çoxsaylı vəzifələr var. Deməli, səhhətinizi qorumaqla hər şeyə nail ola bilərsiniz.

**ŞİR** - Kənardan hansısa dəstək alacağınız inandırıcı deyil. Bu səbəbdən də yalnız öz gücünüzə arxalanın. Göy qübbəsi görüş və müzakirələrə gecikməməyi tövsiyə edir. Riskdən qorxmayın.

**QIZ** - Bəxtinizdə maraqlı bir gün durur. Qarşınıza çıxan bütün şanslardan yararlanın. Şəxsi büdcənizin azlığından şikayətlənməyin. Axı hələ hər şey itirilməyib. Azacıq səbr edin.

**TƏRƏZİ** - Yaxşı olar ki, özünüzü bütünlüklə sevgiyə həsr edəsiniz. Çünki məhəbbətin himayədarı olan planetinizin (Venera) ideal nöqtədə qərar tutması aktivliyiniz xeyli artıracaq.

**ƏQRƏB** - Astroloji göstəricilər xoş bir təqvim yaşayacağınızı bildirir. Xüsusən də saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Şəxsi büdcənizi artırmaq üçün cənfəşanlıq göstərin.

**OXATAN** - Diqqətli olun, sizi aldada bilərlər. Ələlxüsus da peşə-sənət fəaliyyətində, işgüzar sövdələşmələrdə ayıq-sayıqlığınızı artırmalısınız. Düşünülməmiş riskə ehtiyac yoxdur.

**OĞLAQ** - Bürcünüzün "hakimiyyət dövrü" daraldıqca işgüzarlığınız da artmaqdadır. Bu səbəbdən şəxsi büdcənizi qorumalı, fəaliyyət istiqamətlərini dəqiqləşdirməlisiniz. Mübahisələrdən qaçın.

**SUTÖKƏN** - Maraqlı adamlarla görüşəcəyinizi bəyan edən ulduzlar hazırkı perspektivləriniz üçün bunun böyük səmərə verəcəyini deyir. Başqa maraqlı olaylarla da qarşılaşacağınız istisna olunmur.

**BALIQLAR** - Uğurlarınıza təkan verildiyindən qlobal problemləriniz arxada qalmaqdadır. Lakin rəqiblərlə münasibətdə ehtiyatı əldən buraxmamalısınız. Adı təhlükədə hallanan vəzifəlilərdən uzaq olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Amerikalı qız tetris oyununa ərə getmək istəyir



**Amerikanın Florida şəhərində yaşayan 20 yaşlı qız - Nurul Maxcabin Hassan tetrisə ərə getmək istədiyini bəyan edib. Bu barədə "Metro" saytı xəbər verib. Hassan hamının onu Fraktal Tetris Hurakan çağırmasını istəyir.**

**O danışır ki, sözügedən oyunla münasibətlərini 2016-cı ildən "kəsib". Həmin vaxtdan etibarənsə gündə 12 saat müxtəlif saytlarda, smartfonda arkadu oyunu oynayır. Fraktal bu oyuna sədaqətini bu oyunun elementlərinə bənzər fiqurları qulağına sırğa etməklə göstərir. Bu vaxta qədər qız Pyer adlı kalkulyatoru ilə "sevgi yaşayır", eyni zamanda iPod pleyrinə sevgisini etiraf edir, qaçış alətini və GPS-naviqatorunu sevdiyini də deyirdi. Fraktal özünü "obyekt seksual" adlandırır. Əslində tibbdə belə hallar var. Bəzi insanlar zaman-zaman özlərinin çılçıraqla, dəmiryolu stansiyası ilə evli olduğunu bəyan edib və bunu rəsmiləşdirməyə cəhd göstəriblər.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100